# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN)

## Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında

**Naxçıvan Muxtar Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**

## 2024-cü il üzrə məruzəsi

**Naxçıvan – 2025**

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2024-cü il üzrə məruzəsi “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 14-cü maddəsinə uyğun olaraq hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) cari il bitdikdən sonra bir aydan gec olmayaraq illik məruzəni Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə təqdim edir və həmin məruzə ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında çıxış edir.

İllik məruzə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə və Naxçıvan Muxtar Respublikasının Prokuroruna göndərilir.

Məruzə «Şərq qapısı» qəzetində dərc olunur.

## Giriş sözü

Müxtəlif inkişaf mərhələlərindən keçən bəşər sivilizasiyasının qazandığı ən böyük nailiyyətlərdən biri də insan hüquqlarına hörmət anlayışıdır. İnsan hüquqlarının qorunması, ona hörmət isə cəmiyyətin demokratikliyini sübut edən əsas atributlardan biridir.

Dünya birliyində özünə layiq yer tutmaq istəyən hər bir demokratik dövlət insan və vətəndaş hüquqlarının, azadlıqlarının hərtərəfli qorunmasını təmin etməli, bu hüquq və azadlıqların sərbəst şəkildə və məhdudlaşdırılmadan həyata keçirilməsi üçün şərait yaratmalıdır.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi istiqamətində həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş müasir hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır.

2024-cü il xalqımız və dövlətimiz üçün bir çox əlamətdar hadisələrlə yadda qalmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilərək ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində beş milli prioritet müəyyən edilmiş, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonaları elan edilmişdir. Həmçinin, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP 29-a) Azərbaycanın ev sahibliyi etməsi Ölkəmizin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirilmişdir.

Azərbaycanın bugünkü uğurları bir daha onu təsdiqləyir ki, ölkə başçısı cənab İlham Əliyev ölkəmizi mütərəqqi beynəlxalq hüquq normalarına uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran dövlətə çevirmişdir.

Bu gün Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüquq normalarına cavab verən geniş hüquqi baza mövcuddur. Bu hüquqların həyata keçirilməsi ilə bağlı konkret hüquq müdafiə mexanizmləri fəaliyyət göstərir. İnsan hüquq və azadlıqlarının təmin olunması istiqamətində tədbirlərin həyata keçirilməsi ilə bağlı dövlətin siyasi iradəsi mövcuddur. Bu istiqamətdə davamlı olaraq islahatlar həyata keçirilir. Həmin islahatlar nəticəsində qanunvericilik təkmilləşdirilərək müvafiq beynəlxalq sənədlərə uyğunlaşdırılır, əhalinin hüquq və azadlıqları daha yüksək səviyyədə təmin olunur.

Ölkəmizdə insan hüquqlarının daha etibarlı müdafiəsinin təmin edilməsi, vətəndaşların hüquq institutlarına inamının artırılması, onların müraciət etmək imkanlarının asanlaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da ardıcıl şəkildə davam etdirilir, əhalinin müxtəlif sosial qruplarının hüquq bərabərliyinin davamlı təmin edilməsi daim diqqət mərkəzində saxlanılır.

Hesabat dövründə muxtar respublikada idarəetmənin daha da təkmilləşdirilməsi, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılması, Azərbaycanda ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyət çərçivəsində muxtar respublikanın yaşıl enerji zonası elan olunması, "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam, bütün bunların yekunu olaraq isə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması Naxçıvanda yeni inkişaf mərhələsinin əsasını qoymuşdur.

Dövlət və vətəndaş münasibətlərində yeni başlanğıc hesab edilən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) (bundan sonra Ombudsman) muxtar respublikada da səmərəli hüquq müdafiə mexanizmi kimi formalaşaraq fəaliyyətini insan hüquqlarının daha etibarlı müdafiəsi, pozulmuş hüquqların bərpası və pozulmasının qarşısının alınması, daxil olan müraciətlərin araşdırılması, preventiv və müstəqil monitorinq mexanizm funksiyalarının icrası, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin informasiya sahibləri tərəfindən yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi, beynəlxalq təcrübə mübadiləsi, hüquqi maarifləndirmə, bu sahədə dövlət orqanları və bələdiyyələr, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davamlı inkişaf etdirilməsi istiqamətində quraraq uğurla davam etdirir.

Muxtar respublikada dövlət orqanları, bələdiyyələr və digər qurumların, onların vəzifəli şəxslərinin hərəkət və hərəkətsizliyi ilə bağlı çatışmazlıqların aradan qaldırılmasına xidmət edən, dövlət qurumları tərəfindən əsas hüquq və azadlıqların realizə edilməsində mühüm təsir vasitəsi olan Ombudsman insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsini və etibarlı müdafiəsini həyata keçirir.

Öz fəaliyyətini müstəqillik, aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında quran Ombudsman aparatında 2024-cü il ərzində 490 vətəndaş qəbulu həyata keçirilmiş, icraatda **241 müraciət olmuşdur.**

Bu müraciətlər Ombudsmana yazılı (o cümlədən elektron) qaydada göndərilmiş, həmçinin Aparatda vətəndaş qəbulu, Ombudsmanın muxtar respublikanın şəhər və rayonlarında əhali qrupları ilə görüşləri, cəzaçəkmə müəssisəsinə, istintaq təcridxanasına, müvəqqəti saxlama yerinə, hərbi hissələrə, sosial xidmət mərkəzlərinə, internat məktəbinə, səhiyyə, təhsil müəssisələrinə həyata keçirilmiş başçəkmələr və monitorinqlər zamanı təqdim edilmişdir.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə Ombudsmanın muxtar respublikanın şəhər və rayonlarında sakinlərlə görüşü keçirilmiş, görüşlər zamanı Ombudsmanın icraatına 40 müraciət daxil olmuş, müraciət edənlərə hüquqları izah olunmuş, pozulmuş hüquqlar bərpa edilmişdir.

Həmçinin muxtariyyətin 100 illiyi ilə bağlı muxtar respublikanın kəndlərində ictimai dinləmə, maarifləndirici söhbətlər və monitorinqlər aparılmış, müraciət edənlərə hüquqları izah edilmiş, icraata qəbul olunmuş müraciətlər qanunvericiliyin tələbləri çərçivəsində araşdırılmışdır.

"18 İyun Azərbaycan Respublikasında İnsan Hüquqları Günü" münasibətilə Ombudsmanın təşkilatçılığı ilə 18 dövlət orqanının nümayəndəsinin cəlb edildiyi aksiya

zamanı muxtar respublikanın şəhər və rayonlarında vətəndaş qəbulu həyata keçirilmiş, qəbul zamanı 56 sakinə müvafiq hüquqi yardım göstərilmiş, müraciət edənlərə operativ şəkildə hüquqları izah olunmuş, araşdırma tələb edən müraciətlər baxılmaq üçün icraata qəbul edilmiş, qanunvericiliyin tələbləri çərçivəsində araşdırmalar aparılmış və nəticələri barədə müraciət edənlərə yazılı məlumatlar verilmişdir.

Daxil olmuş müraciətlərin hüquqi kateqoriyasına görə ən çoxunu, yəni **22 faizini hüquq və azadlıqların inzibati və məhkəmə təminatı, 15.4 faizini sosial təminat, 12 faizini əmək, 8.7 faizini isə mülkiyyət hüququnun təmini və müdafiəsi** ilə bağlı müraciətlər təşkil etmişdir. Digər müraciətlər isə təhsil, bərabərlik, müraciət etmək, informasiya əldə etmək, özbaşınalıqdan müdafiə və vicdanlı davranış, azad sahibkarlıq, sağlam ətraf mühitdə yaşamaq, şərəf və ləyaqətin müdafiəsi, sağlamlığın qorunması və.s hüquqlarla bağlı olmuşdur.

Qanunun tələblərinə müvafiq olaraq şikayətin Ombudsmanın səlahiyyətlərinə aid olmaması, şikayətlə bağlı məhkəmə icraatının getməsi, şikayətin anonim olması, şikayətdə üçüncü şəxs qismində müraciət edənin razılığının olmaması, ərizəçinin hüquqlarının pozulduğu və ya ona bu barədə məlum olduğu gündən 1 il müddətinə verilməməsi, təkrar təqdim edilmiş şikayətdə yeni məlumat, fakt və sübutların olmaması səbəbindən **43 müraciətə baxılmaqdan imtina edilmişdir**. **198 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, 84 müraciətdə (78 tam, 6 qismən) hüquq pozuntusu aradan qaldırılaraq ərizəçilərin hüquqları təmin edilmiş,** 58 müraciətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmiş, 26 müraciət üzrə hüquqi məsləhətlər verilmiş, 14 müraciət nəzarətdə saxlanılmış, 1 müraciətdə cinayət əlamətləri aşkar edildiyindən Naxçıvan Muxtar Respublikasının Prokrorluğuna, 2 müraciət isə aidiyyəti üzrə göndərilmiş, 13 müraciətin icraatı davam etdiyindən növbəti ilə qalıq qalmışdır.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 8.2-ci maddəsinə əsasən Ombudsmana ilk dəfə olaraq ictimai birlik tərəfindən şikayət daxil olmuş, müraciət qanunamüvafiq qaydada araşdırılaraq, zəruri tədbirlər görülmüşdür.

Qanunvericiliyin tələbləri çərçivəsində araşdırmalar aparılarkən bəzi müraciətlərin düzgün və obyektiv şəkildə qiymətləndirilməsi və doğru hüquqi addımların atılması, o cümlədən hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə şikayətlər üzrə yerində araşdırmalar aparılmış, dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələri (psixoloq və digər mütəxəssislər) dəvət olunaraq zəruri tədbirlər görülmüş, ekspert rəyləri alınmışdır.

Müraciətlərin araşdırılması və təhlili təcrübəsi, habelə dövlət qurumları ilə əməkdaşlıq əlaqələri bir sıra problemlərin operativ həllində və baş verə biləcək pozuntu hallarının qarşısının alınmasında əhəmiyyətli rol oynamışdır. **Nəticədə ərizəçilərin hüquqlarının təmin edilmə göstəricisi ötən illə müqayisədə 12.7 faiz artmışdır.**

Muxtar respublikanın aidiyyəti dövlət orqanlarına vətəndaşların etdiyi müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və vaxtında baxılmaması və yazılı cavab verilməməsi barədə şikayətçilər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər qanunamüvafiq araşdırılmış, vətəndaşların hüquqlarını pozan dövlət orqanlarına müvafiq

tədbirlərin görülməsi ilə bağlı müvafiq sorğular ünvanlanmış, hüquq pozuntuları aradan qaldırılaraq vətəndaşların hüquqları təmin edilmişdir.

Uşaq hüquqlarının səmərəli müdafiəsi və təşviqinə nail olmaq məqsədilə hər il olduğu kimi, ölkəmizdə 20 oktyabr - 20 noyabr tarixləri "Uşaq Hüquqları Aylığı" elan edilmiş, Ombudsman muxtar respublikada bütün aidiyyəti qurumları "Uşaq Hüquqları Aylığı"na qoşulmağa dəvət edərək uşaq hüquqlarının müxtəlif aspektləri üzrə araşdırmaların aparılmasına, maarifləndirmə, təşviqat və digər tədbirlərin keçirilməsinə çağırmışdır. Muxtar respublikanın daxili işlər, ədliyyə, təhsil, mədəniyyət, gənclər və idman, əmək və əhalinin sosial müdafiəsi nazirlikləri, yerli icra hakimiyyəti orqanları və digər aidiyyəti dövlət qurumları tərəfindən aylıq çərçivəsində 247 tədbir həyata keçirilmişdir.

Ombudsman tərəfindən növbədənkənar Azərbaycan Respublikasının Prezident və Milli Məclisinə seçkilərdə, o cümlədən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə müşahidələr aparılmışdır.

İnsan hüquq və azadlıqlarının təmini vəziyyətini daim diqqətdə saxlayaraq monitorinqini aparan Ombudsman ötən il ərzində səlahiyyətli dövlət orqanlarına insan hüquqlarının daha səmərəli təmin olunması və müdafiəsi, o cümlədən əhalinin həssas qruplarının problemlərinin operativ şəkildə həll olunması məqsədilə təklif və tövsiyələrlə müraciət etmişdir.

Ombudsmana etimad göstərərək müraciət edən şəxslərə, həmçinin insan hüquq və azadlıqlarının təmini və müdafiəsi istiqamətində əməkdaşlıq edən dövlət orqanlarına və vətəndaş cəmiyyəti institutlarına təşəkkürümü bildirirəm.

**Günay Rzayeva**

Naxçıvan Muxtar Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

# I FƏSİL

# İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ

## 1.1. Mülki və siyasi hüquqların müdafiəsi

***Azadlıq hüququ.*** Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edildiyi kimi, hər kəsin azadlıq hüququ vətəndaşlığından asılı olmayaraq hər bir şəxsə məxsusdur və ayrılmazdır. Cəmiyyətin sosial-iqtisadi əsasları ilə müəyyən edilən bu hüquq qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəsin öz arzu və iradəsinə uyğun, hər hansı məhdudiyyət olmadan sərbəst hərəkət edə bilmək, özünə yaşayış yeri seçə bilmək və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilmək, həmçinin Azərbaycan Respublikası vətəndaşlarının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququnu özündə ehtiva edir. Bu hüququn səmərəli təmin edilməsi digər hüquqların da qanuni surətdə həyata keçirilməsinə şərait yaradır.

Bu sahədə Ombudsmanın ünvanına daxil olan müraciətlərdə əsasən Azərbaycan Respublikası vətəndaşlarının yaşayış yeri üzrə qeydiyyata alınması, ölkədən çıxışa qoyulmuş məhdudiyyətin götürülməsi, xarici ölkəyə gedə bilmək üçün ümumvətəndaş pasportunun verilməsi və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Müəyyən səbəblərdən daimi yaşayış yeri üzrə qeydiyyatdan çıxarılan və yaşayış yeri olmayan vətəndaşların müraciətlərinə diqqətlə yanaşılmış, Ombudsman tərəfindən belə şəxslərin hüquqlarının təmin edilməsi üzrə zəruri tədbirlər görülmüş və aidiyyəti dövlət qurumlarına təklif və tövsiyələr verilmişdir.

Qanunvericiliyin tələblərinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Qeydiyyatın məqsədi şəxslərin uçota alınması, onların başqa şəxslər, habelə dövlət və cəmiyyət qarşısında vəzifələrini icra etməsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi üçün zəruri şərait yaratmaqdır.

**Ərizəçi A.** Ombudsmana müraciət edərək ailə üzvləri ilə birgə atasına məxsus yaşayış evində qeydiyyatda olduğunu, şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi ilə bağlı aidiyyəti quruma müraciət etdiyi zaman ona ailə üzvləri ilə birlikdə yaşayış yerindən qeydiyyatdan çıxarıldığının bildirdiyini, heç bir ünvanda qeydiyyatda olmadığı üçün şəxsiyyət vəsiqəsini dəyişdirə bilmədiyini qeyd etmiş və bu məsələnin araşdırılmasını xahiş etmişdir. Müraciətlə bağlı aidiyyəti dövlət orqanlarına sorğular verilmiş və araşdırma aparılmışdır.

Araşdırma zamanı ərizəçinin qeydiyyatda olduğu fərdi yaşayış evinin yerləşdiyi küçənin adının yerli icra hakimiyyəti başçısının sərəncamı ilə dəyişdirildiyi, texniki səhvlik səbəbindən həmin ünvanın qonşunun mülkiyyətində olan yaşayış evinə şamil edildiyi, nəticədə aidiyyəti məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ərizəçinin ailə üzvləri ilə birlikdə həmin ünvanda yerləşən yaşayış evindən qeydiyyatdan çıxarıldığı məlum olmuşdur. Ərizəçiyə hüquqları izah olunaraq yaşadığı evin yerləşdiyi ünvan üzrə qeydiyyata alınması üçün aidiyyəti quruma müraciət etməsi tövsiyə olunmuşdur.

Bəzən aidiyyəti dövlət orqanları tərəfindən yaşayış yerləri üzrə ünvanlarda dəyişiklik edilərkən yol verilmiş texniki səhvliklər nəticəsində vətəndaşlar heç bir xəbərdarlıq edilmədən daimi yaşayış yerləri üzrə qeydiyyatdan çıxarılaraq hüquqları pozulur. Bu kimi hallarda qeydiyyatdan çıxarılmış şəxslərin şəxsiyyət vəsiqələrinin etibarsız olması səbəbindən əmək müqavilələrinin bağlanması, icbari tibbi sığorta çərçivəsində xidmətlərdən yararlanması mümkün olmur, habelə həmin şəxslərin sosial təminat, təhsil və digər hüquqları da məhdudlaşdırılır.

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində şəxsin yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmasının əsasları göstərilmişdir. Belə ki, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında şəxsin yaşayış sahəsindən çıxarılması və ya yaşayış sahəsindən istifadə hüququna xitam verilməsi, o cümlədən qeydiyyata alınma üçün əsas olmuş sənədlərin və ya məlumatların həqiqətə uyğun olmadığının aşkar edilməsi şəxsin yaşayış yeri üzrə qeydiyyatdan çıxarılması üçün əsasdır.

Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs, eyni zamanda Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər. Bu, azadlıq hüququnun mühüm elementlərindən biridir. Qanunvericilikdə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasının əsasları göstərilmişdir.

Azərbaycan Respublikası ərazisindən çıxışa qoyulmuş məhdudiyyətin aradan qaldırılması, ölkə ərazisindən kənara gedə bilmək azadlığının təmin edilməsinə dair Ombudsmanın ünvanına bir sıra müraciətlər daxil olmuş, bu müraciətlər üzrə qanunamüvafiq qaydada araşdırma aparılaraq zəruri tədbirlər görülmüşdür.

Qeyd etmək lazımdır ki, şəxsin yaşayış yeri üzrə qeydiyyatdan çıxarılması barədə həmin şəxsin məlumatlandırılmaması, bununla bağlı məlumatın yalnız şəxsiyyət vəsiqəsinin (ümumvətəndaş pasportunun) dəyişdirilməsi zamanı və ya sərhədi keçərkən bildirilməsi onların digər hüquqlarının da məhdudlaşdırılmasına səbəb olur. Bu baxımdan ölkədən getmək və ölkəyə gəlmək hüququ məhdudlaşdırılan vətəndaşlar barədə məlumatların "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edildiyi, o cümlədən vətəndaşların yaşayış yeri üzrə qeydiyyatdan çıxarıldığı andan həmin vətəndaşlara bildirişin göndərilməsinin məcburiliyi ilə bağlı imperativ normalar müəyyən edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasına və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlərə əsasən azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

Ombudsman və onun tapşırığına əsasən Preventiv qrupun üzvləri tərəfindən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə, o cümlədən İstintaq Təcridxanasına, Müvəqqəti Saxlama Yerinə, Qanunsuz Miqrantların Saxlanma Mərkəzinə, şəhər və rayon polis idarə, şöbə və bölmələrinin saxlama yerlərinə müntəzəm keçirilmiş başçəkmələr zamanı azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı məsələlər araşdırılmış, saxlamanın əsasları, qanuniliyi, müddət və şərtləri, saxlanılan şəxslərin hüquqlarının təmini ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunub-olunmaması məsələləri aydınlaşdırılmışdır.

Cinayət-prosessual qanunvericiliyə əsasən hər bir tutulmuş və ya həbsə alınmış şəxsə dərhal tutulmanın, yaxud həbsə alınmanın səbəbləri, habelə şübhənin və ya ittihamın mahiyyəti, ifadə verməmək və müdafiəçi tərəfindən hüquqi yardım almaq hüquqları ona aydın olan dildə bildirilməlidir.

Başçəkmələr zamanı qəbul edilmiş şəxslərdən hüquq və vəzifələri, daxili intizam qaydaları, o cümlədən həbs yerində rejim, təkliflərin, ərizələrin və şikayətlərin verilməsi qaydası barədə məlumatlandırılması ilə bağlı qanunvericiliyin tələblərinə əməl edilib-edilməməsi araşdırılmış, Ombudsmana müraciət etmə qaydaları barədə məlumat lövhəsinin mövcudluğu yoxlanılmış, bununla bağlı çatışmazlıqlar yerində aradan qaldırılmışdır.

Tutulmuş şəxsin hüquqlarının təmin olunması üçün cinayət prosesini həyata keçirən orqanın və müvəqqəti saxlama yerinin əməkdaşları şəxsə tutulduğu andan öz vəkili və qanuni nümayəndəsi ilə ləyaqətli şəraitdə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq imkanı yaratmalıdır.

Tutulmuş və ya həbs edilmiş şəxslər qanunvericiliklə müəyyən edilmiş hüquq və azadlıqlardan istifadə edir və vəzifələr daşıyırlar. Həbs yerinə gətirildikdən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla bu barədə məlumat vermək imkanı ilə təmin olunmaq, müdafiəçisi və qanuni nümayəndəsi ilə görüşmək, o cümlədən yaxın qohumları və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərlə görüşmək tutulmuş və ya həbs edilmiş şəxslərin əsas hüquqlarındandır.

**Ərizəçi B.** Ombudsmana müraciət edərək MSY-yə gətirildikdən sonra yaxın qohumlarına məlumat verə bilmədiyini qeyd etmiş, saxlanması barədə yaxın qohumlarına məlumat vermək üçün telefonla zəng etmək hüququnun həyata keçirilməsinə köməklik göstərilməsini xahiş etmişdir. Müraciət yerində araşdırılmış, telefonla zəng etmək hüququ təmin edilmişdir.

Tutulmuş və ya həbs edilmiş şəxs həbs yerinə gətirildikdən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə bu barədə məlumat vermək üçün bir dəfə telefonla zəng etmək hüququna malikdir. Həbs edilmiş şəxslər həftədə iki dəfə 15 dəqiqəyədək müddətdə telefonla danışmaq hüququna malikdirlər.

**Ərizəçi C.** Ombudsmana müraciət edərək cəzaçəkmə müəssisəsində cəza çəkən oğlundan xəbər ala bilmədiyini qeyd etmiş, oğlu ilə telefon vasitəsilə əlaqə saxlamasına köməklik göstərilməsini xahiş etmişdir. Müraciət dərhal araşdırılmış, qanunvericiliyin tələblərinə uyğun olaraq ərizəçinin oğlu ilə ünsiyyət hüququ təmin olunmuşdur.

**Ərizəçi Ç.** Ombudsmana müraciət edərək cinayət törətməkdə təqsirli bilinən oğlunun harada saxlanıldığı barədə məlumatının olmadığını bildirmiş, oğlunun saxlanıldığı yerin müəyyən edilməsinə və telefon əlaqəsinin saxlanılmasına köməklik göstərilməsini xahiş etmişdir. Müraciət dərhal araşdırılmış, oğlunun İstintaq Təcridxanasında saxlanıldığı müəyyən edilmiş, ərizəçinin oğlu ilə ünsiyyət hüququ təmin olunmuşdur.

Başçəkmələr zamanı şəxslərin saxlanılması ilə bağlı qanunvericlikdə nəzərdə tutulmuş prosessual normalara əməl edilib-edilməməsinin də monitorinqi aparılmışdır.

Bəzi hallarda polis orqanlarındakı (Sədərək Rayon Polis Şöbəsi, Şahbuz Rayon Polis Şöbəsi) müvafiq qeydiyyat kitablarında qeydlərin aparılması zamanı natamam qeydə alınma və qanunvericiliklə müəyyən olunan müddətdən artıq saxlanılma hallarına rast gəlinmişdir.

Qeyd etmək lazımdır ki, polis orqanlarındakı sənədləşmədə olan nöqsan və çatışmazlıqlar qeydiyyat işinin düzgün təşkil edilməməsini, şəxslərin saxlanılması ilə bağlı prosessual müddətlərə riayət edilib-edilməməsini müəyyənləşdirməkdə çətinliklərə səbəb olur və bir çox hallarda belə pozuntuların aşkarlanmamasına xidmət edir. Bu halların qarşısının alınması üçün qanunvericiliyin tələbləri nəzərə alınaraq, hər bir saxlanılan şəxslə bağlı əhatəli və dolğun qeydiyyat aparılmalı, saxlanılan şəxsin adı, saxlanma səbəbi, saxlanmanın vaxtı, dindirmə, başqa yerə köçürülmə, onlar barədə bütün prosessual hərəkətlər və digər məlumatlar müfəssəl şəkildə təsvir olunmalıdır.

***"İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza əleyhinə" Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş preventiv mexanizm funksiyalarının həyata keçirilməsi.***

Ombudsman və onun Preventiv qrupu (PQ) tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanma şəraitinin, rəftar məsələlərinin, sənədləşdirmənin, habelə daxil olmuş müraciətlərin araşdırılması və əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin yoxlanılması məqsədilə 2024-cü il ərzində **62 başçəkmə** həyata keçirilmişdir.

Daxili İşlər Nazirliyinin tabeliyində olan müəssisələrə 31, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrinə 16, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə 4, Təhsil Nazirliyinin müəssisəsinə 2, Səhiyyə Nazirliyinin müəssisəsinə 5, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisəsinə 2 və Naxçıvan Regional Miqrasiya Baş İdarəsinin müəssisəsinə 2 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr həyata keçirilərkən hüquq pozuntusu faktlarının aşkar edilməsi və qarşısının alınması məqsədilə texniki vasitələrdən istifadə edilməklə foto, audio və video qeydiyyatları aparılmış, başçəkmələrin gedişi və nəticələri protokollaşdırılmış, zəruri tədbirlər görülmüşdür.

Həmçinin Preventiv mexanizmin rəhbəri kimi Ombudsman Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin Qadınlar bölməsinə, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının tabeliyində olan sərhəd zastavasına, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinın tabeliyində olan "Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsi"nə başçəkmə həyata keçirmiş, orada olan şəxslərlə fərdi və konfidensial söhbət aparmış, müəssisə rəhbərliyinə və əməkdaşlarına hüquqi məsləhətlər və tövsiyələr vermişdir.

Başçəkmələr zamanı **1047** şəxslə ümumi və **55** şəxslə konfidensial görüş keçirilmişdir. Görüşlər zamanı həmin şəxslərin hüquqlarının təmini vəziyyəti öyrənilmiş, müraciətləri dinlənilərək hüquqları izah edilmiş, bir çox məsələlər yerində həll edilmiş, digər hallarla bağlı aidiyyəti dövlət qurumlarına müraciətlər edilmişdir.

Başçəkmələr zamanı Ombudsmanın icraatına yazılı və şifahi formada **7 müraciət daxil olmuş,** müraciət edənlərə operativ şəkildə hüquqları izah olunmuş, araşdırma tələb edən müraciətlər baxılmaq üçün icraata qəbul olunmuş, qanunvericiliyin tələbləri çərçivəsində araşdırmalar aparılmış və nəticəsi barədə müraciət edənlərə yazılı məlumatlar verilmişdir. Başçəkmələrdə müraciət edənlərdən **4 şəxsin pozulmuş hüquqları bərpa edilmiş,** qalanlarında hüquq pozuntusu aşkar edilməmişdir.

Yaşayış sahəsi, qida, gigiyena saxlanılan şəxslərin ləyaqət hissinə və rifah halına təsir edən amillərdəndir. Buna görə də başçəkmələr zamanı məhkumların ləyaqətlərinin qorunması, işçi heyətin onlarla humanist və müsbət rəftar etmə öhdəliyinə əməl etmə məsələlərinə xüsusi diqqət yetirilmiş, məhkumların saxlanılması üçün bütün mümkün sahələrdən istifadə, gigiyena və sanitariya qurğuları, məhkumların sağlamlığının qorunması və açıq havada olmaq imkanı monitorinq olunmuşdur.

2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 34 saxlanılan şəxs üçün nəzərdə tutulmuş İstintaq Təcridxanasında mövcud şəraitlə bağlı sıxlıq problemi yenə də aşkar olunsa da, ilin ikinci yarısında bu problemin aradan qaldırıldığı müəyyən olunmuşdur.

İstintaq Təcridxanasına həyata keçirilmiş başçəkmələrin nəticələri nəzərə alınaraq, həbsə alternativ qətimkan tədbirlərinin seçilməsinin əhəmiyyəti diqqətə çatdırılır. Bu baxımdan təqsirləndirilən şəxslər barəsində ən ciddi prosessual məcburiyyət tədbiri olan həbs qətimkan tədbirinin seçilməsi haqqında təqdimata baxılarkən qanunvericilikdə nəzərdə tutulmuş digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyü yoxlanılmalıdır.

Başçəkmələr zamanı saxlanma şəraitinin digər aspektləri-işıqlandırma, havalandırma, sanitariya şəraiti, masa və oturacaqlar, habelə fərdi çarpayı və yataq ləvazimatları ilə təchizat məsələləri, o cümlədən əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılması istiqamətində verilmiş təklif və tövsiyələrin icrası vəziyyəti araşdırılmış, müsbət dəyişikliklərin olduğu müşahidə edilmişdir.

Belə ki, ötən ildə həyata keçirilmiş başçəkmələrdə verilmiş təklif və tövsiyələrə uyğun olaraq penitensiar müəssisələrin hamam və sanitar qovşaqlarında əsaslı təmir işləri aparılaraq sanitariya və gigiyena qaydalarına uyğun zəruri şərait yaradılmış, elektrik sistemlərinə dəyişiklik edilərək işıqlandırma daha da yaxşılaşdırılmış, mərkəzləşdirilmiş ticarət şəbəkəsi vasitəsilə satışına icazə verilən qida məhsullarına və digər mallara əlçatanlıq təmin olunmuşdur.

Qeyd olunanlarla yanaşı, 2024-cü il ərzində penitensiar müəssisələrə həyata keçirilmiş başçəkmələr zamanı bir sıra nöqsanlar aşkar olunmuşdur.

8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinə həyata keçirilmiş başçəkmə zamanı bişirilən yeməyin menyuya uyğun olmadığı, menyuda nəzərdə tutulan yeməklərin bişirilməsi üçün lazım olan ərzaqlardan bəzilərinin (ət məhsulları) ərzaq anbarında olmadığı, qidanın minimum keyfiyyətinə nəzarət olunmadığı aşkar edilmişdir.

Qarışıq rejmli cəzaçəkmə müəssisəsinin bəzi rejm bölmələrinə baxış keçirilərkən istifadə tarixi bitmiş bişirilməli olan ərzaq məhsulları aşkar edilmiş, məhkumların gigiyena-sanitariya qaydalarına uyğun zəruri maddi-məişət şəraiti ilə təmin olunmadıqları, yumşaq invertarların, yataq ləvazimatlarının köhnəldiyi, rejm bölmələrində hamam və ya duş qəbul

edildiyi günlərdən başqa digər günlərdə isti su təminatı olmadığından təhlükəli vasitə hesab olunan su qızdırıcılardan istifadə olunduğu, naqillərin açıq olduğu, sanitar qovşaqlarda təmiz hava axınının olmaması səbəbindən pis qoxunun yayıldığı müəyyən olunmuşdur. Bununla yanaşı məhkumların videogörüş keçirmək hüququnun təmin edilməsi üçün şəraitin yaradılmadığı, bədən tərbiyəsi və idmanla məşğul olmaları üçün mövcud şəraitin qənaətbəxş olmadığı, məhkumlarla tərbiyə işinin təşkili məqsədilə kitabxanadakı kitabların yetərli olmadığı müşahidə olunmuşdur.

Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin tibbi-sanitar hissəsinə baxış zamanı məhkumlara tibbi xidmətin göstərilməsi üçün yaradılmış şəraitin qənaətbəxş olmadığı, istifadə müddəti bitmiş dərman preparatlarının saxlanıldığı, sanitariya-gigiyena qaydalarına əməl edilmədiyi, ambulator və stasionar müalicəyə cəlb olunmuş məhkumlara göstərilən tibbi yardımın keyfiyyətinin aşağı olduğu və tibbi-sanitar hissənin təmirə ehtiyacı olduğu müəyyən olunmuşdur.

Başçəkmələrin təhlili penitensiar müəssisələrdə psixoloji yardımla bağlı çatışmazlıqların olması qənaətinə gəlməyə əsas verir. Ödənişsiz psixoloji yardımın göstərilməsinin qaydaları və şərtləri barədə hüquqi baza mövcud olsa da, qapalı müəssisələrdə saxlanılan və psixi sağlamlığına potensial təhlükə yarana biləcək şəxslərə keyfiyyətli və adekvat yardımın göstərilməsinə ciddi ehtiyac vardır.

Penitensiar müəssisələrdə maddi-məişət şəraitinin yaxşılaşdırılması, sanitariya-gigiyena şəraitinin qanunvericiliyin tələblərinə uyğunlaşdırılması və mövcud nöqsanların aradan qaldırılması üçün yuxarı dövlət orqanına təklif və tövsiyələr verilmişdir.

Bundan sonra bir sıra nöqsanlar aradan qaldırılmış, məhkumların ədəbiyyat əldə etməsi hüququ təmin edilərək kitabxanalar müxtəlif nəşrlərdə kitablarla zənginləşdirilmiş, yazı ləvazimatlarına əlçatanlıq təmin edilmiş, tibb-sanitar hissədə təmir-bərpa işləri görülmüş, qadın məhkumların videogörüş keçirmək hüququ təmin edilmiş, elektrikli su qızdırıcılardan istifadə qadağan olunmuş, məhkumların maddi-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onlar geyim, ayaqqabı, yumuşaq invertarlar və gigiyenik vasitələrlə təmin olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin, Mühafizə Taborununun və 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinin tibb xidməti sahəsində fəaliyyət göstərən struktur bölmələrinin əsasında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Tibb Xidmətinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini 24 dekabr 2024-cü il tarixli Fərman imzalamışdır. Bu isə məhkumların tibbi təminatının daha da gücləndirilməsinə və göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə xidmət edəcəkdir.

2024-cü il ərzində Ombudsmanın Preventiv qrupu tərəfindən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin tabeliyində olan Müvəqqəti Saxlama Yerinə, polis idarə, şöbə və bölmələrinə həyata keçirilmiş başçəkmələr zamanı Müvəqqəti Saxlama Yerinin kameralarında sanitariya-gigiyena qaydalarına əməl olunmamasının cəzanın ləyaqətli şəkildə çəkilməsinə maneə olduğu, istifadəyə yararsız dərman preparatlarının mövcudluğu, yumşaq invertarların istifadəyə yararsız və natəmiz olduğu, bəzi müəssisələrin

müvəqqəti saxlama yerlərində şəraitin uzunmüddətli saxlanılma (24 saatdan artıq) üçün əlverişli olmadığı, həmçinin bəzi polis şöbələrində "Görüş otağı"nın olmadığı, ümumilikdə MSY-də saxlanılan şəxslərin maddi-məişət və tibbi-sanitariya təminatının qənaətbəxş olmadığı müşahidə edilmiş, saxlanma şəraitinin yaxşılaşdırılması, müvafiq müəssisələrdə görüş otaqlarının yaradılması və zəruri avadanlıqlarla təchiz edilməsi, qanunvericiliyin tələblərinə əməl olunmaqla mövcud nöqsanların aradan qaldırılması üçün yuxarı dövlət orqanına təklif və tövsiyələr verilmişdir.

Verilmiş tövsiyələrdən sonra Müvəqqəti Saxlama Yerinin tibb otağında dərmanlar yenilənmiş, havalandırma boruları açılmış və saxlanma kameraları sanitar-gigiyenik vasitələrlə təmin olunmuşdur. Aidiyyəti qurum tərəfindən kompleks təmir işlərinin görüləcəyi və çatışmazlıqların aradan qaldırılacağı bildirilmişdir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan M.Füzuli adına Ordubad şəhər tam orta internat məktəbinə 2024-cü il ərzində həyata keçirilmiş başçəkmələr zamanı məktəbdə gecələyən təhsilalanların saxlanma şəraiti ilə bağlı qanunvericiliyin tələblərinə uyğun olmayan bir sıra nöqsan və çatışmazlıqların olduğu müəyyən edilmişdir.

Belə ki, müəssisəyə həyata keçirilmiş başçəkmələr zamanı valideynlərini itirmiş uşaqlar və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün qanunvericiliklə müəyyən olunmuş qida normalarına əməl olunmadığı, qidanın minimum keyfiyyətinə nəzarət olunmadığı, yataqxanaya baxış zamanı binanın təmirə ehtiyacının olduğu, sanitar qovşaqlarda bəzi su kranlarının istifadəyə yararsız olduğu, məktəbdə psixoloji xidmətin keyfiyyətinin yetərsiz olduğu, eləcə də həkim ştatının vakant olması səbəbindən məktəbdə gecələyən təhsilalanların keyfiyyətli tibbi xidmətlərdən yararlana bilmədiyi və müvafiq normativ-hüquqi akta uyğun olaraq geyim, ayaqqabı və yumşaq invertarlarla təmin edilmədiyi məlum olmuşdur.

Aşkar olunmuş nöqsan və çatışmazlıqlarla bağlı aidiyyəti quruma verilmiş tövsiyələrdən sonra vakant olan həkim vəzifəsinə təyinat aparılaraq məktəbdə gecələyən təhsilalanların tibbi xidmətlərə əlçatanlığı təmin edilmiş, sanitar qovşaqlarda mövcud olan problemlər aradan qaldırılmış, kotirovka sorğusu metodu ilə şagirdlər üçün yeni geyim və ayaqqabılar, o cümlədən yumşaq invertarlar alınmışdır.

Həmçinin qidanın keyfiyyətinə nəzarətin artırılması və qida normalarının müasir standartlara uyğunlaşdırılması məqsədilə Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə müraciət olunmuş və müəssisədə qidanın minimum keyfiyyətinə nəzarət gücləndirilmişdir.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Psixi Xəstəliklər Dispanserinə həyata keçirilmiş başçəkmələr zamanı pasiyentlərin hüquqlarının təminatı vəziyyəti, saxlanma şəraiti və rəftar məsələləri araşdırılmış, maddi-məişət şəraitinin və tibbi-sanitariya təminatının qanunvericiliyin tələblərinə uyğun olmadığı, sanitar-gigiyenik qaydalara riayət olunmadığı üçün koridorda kəskin qoxunun olduğu, elektrik lampalarının bir çoxunun işləmədiyi, hamamda və sanitar qovşaqlarda su kranlarının sıradan çıxdığı, yumşaq invertarların (yorğan, döşək ağlarının) istifadəyə yararsız olduğu aşkar olunmuşdur.

Əhalinin həssas kateqoriyası kimi psixiatriya yardımı və narkoloji xidmətə ehtiyacı olan şəxslərin müalicə aldıqları müəssisədə qanunvericiliyə uyğun zəruri maddi-məişət şəraitinin yaradılması, onların qanunvericiliyə uyğun qida normaları, şəxsi gigiyena əşyaları və yumşaq invertarlarla təmin edilməsi, keyfiyyətli tibbi xidmətlərin təşkilinə diqqətin artırılması və bu sahədə digər nöqsanların aradan qaldırılması, müəssisənin əsaslı təmir edilməsi, yenidənqurma zamanı müasir standartların nəzərə alınması üçün Səhiyyə Nazirliyinə təklif və tövsiyələr verilsə də, mövcud nöqsan və çatışmazlıqlar aradan qaldırılmamışdır.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinın tabeliyində olan "Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsi"nə həyata keçirilmiş başçəkmələr zamanı ahılların və digər sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının müdafiəsi, qidalanma, içməli su, habelə isti və soyuq su ilə təminat, asudə vaxtın təşkili, rəftar, sənədləşmə məsələləri araşdırılaraq, şəraitin qənaətbəxş olduğu müşahidə edilmiş, bu kateqoriyadan olan şəxslərə tibbi-psixoloji və profilaktik tədbirlərin daha yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı müəssisənin rəhbərliyinə təklif və tövsiyələr verilmişdir.

Müvəkkilin preventiv mexanizm funksiyasının icrası məqsədilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Naxçıvan Regional Miqrasiya Baş İdarəsinin tabeliyində olan Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə həyata keçirilmiş başçəkmələr zamanı Mərkəzdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin saxlama şəraiti, saxlanılma rejimi, onların hüquqlarının təmini vəziyyəti öyrənilmiş, qeydiyyat kitablarına baxış keçirilmiş, maddi-məişət şəraitinin qənaətbəxş olduğu müşahidə olunmuşdur.

Ümumilikdə, il ərzində həyata keçirilən başçəkmələrin nəticələri ilə bağlı Ombudsman aidiyyəti dövlət qurumlarına çoxsaylı təkliflərlə müraciətlər ünvanlamış, aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədilə müvafiq tövsiyələr verilmiş, təkrar başçəkmələr zamanı həmin tövsiyələrin icra vəziyyəti yoxlanılmışdır.

***Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı.*** Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Məhkəmə sistemi insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsində əsas hüquqi mexanizmdir.

Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə, ədalət mühakiməsinin vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilməsinə təminat verir.

Ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələr üzrə sürətli inkişaf məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi üzrə yeni prioritetlərin müəyyən edilməsini və bu sahədə islahatların dərinləşdirilməsini şərtləndirir.

Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə ölkəmizdə hüquq-müdafiə vasitələrinə çatım imkanlarının genişləndirilməsi, məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması, məhkəmə icraatının

effektivliyinin yüksəldilməsi, məhkəmə qərarlarının icrası mexanizmlərinin müasirləşdirilməsi, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün islahatlar aparılmaqdadır.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 1.7-ci maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikası hakimlərinin fəaliyyətinin yoxlanılması Ombudsmanın səlahiyyətlərinə aid deyildir. Bununla belə, həmin Qanunun 1.9-cu maddəsində Ombudsmanın məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq, 13.2.6-cı maddəsində Naxçıvan Muxtar Respublikasının dövlət orqanının, bələdiyyənin və digər qurumun, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək hüquqları təsbit edilmişdir.

Həmçinin, bu Qanunun 13.2.7-ci maddəsi şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduğu hallarda Ombudsmanın Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə sorğu ilə müraciət etmək hüququnu müəyyən edir.

2024-cü ildə hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə vəsatətlərə baxılmaması, hakimlərin hərəkətlərindən (və ya hərəkətsizliyindən) narazılıq, məhkəmə qərarları ilə bağlı dövlət rüsumunun geri qaytarılmaması, məhkəmə baxışı zamanı prosessual hüquq normalarının pozulması, işə baxılma müddətlərinin süni şəkildə uzadılması, məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılmasında köməklik göstərilməsi, məhkəmə aktlarından narazılıq, məhkəmə qərarlarının icraya yönəldilməməsi və ya icra olunmaması, şikayətlərə kassasiya və əlavə kassasiya qaydasında baxılması üçün vəkillə təmin olunmaqda köməklik göstərilməsi və digər hallar öz əksini tapmışdır.

Həmin şikayətlər üzrə qanunla müəyyən olunmuş səlahiyyətlər çərçivəsində araşdırmalar aparılmış, Ombudsmanın səlahiyyətlərinə aid olmayan şikayətlər üzrə qanunvericiliyin tələbləri izah edilməklə ərizəçilərə cavablar verilmişdir.

Müraciətlərin araşdırılması zamanı rast gəlinən əsas problemlərdən biri də məhkəmə qərarlarının icra olunmaması, icra tədbirlərinin gecikdirilməsi, borclu barəsində axtarış işinin nəticə verməməsi səbəbindən icra sənədi üzrə icraatın uzun müddət dayandırılması ilə bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinin I hissəsində təsbit edilmişdir ki, məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir.

Ölkəmizdə məhkəmə qərarlarının icrası mexanizminin təkmilləşdirilməsi, icra sənədləri və icra hərəkətləri üzrə vahid elektron məlumat bazasının yaradılması, maraqlı tərəflər üçün informasiya əlçatanlığının təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsinə baxmayaraq, məhkəmə qərarlarının icrası ilə bağlı problemlər hələ də qalmaqdadır.

**Ərizəçi D.** Ombudsmana müraciət edərək Naxçıvan Şəhər Məhkəməsinin qərardadına əsasən dövlət büdcəsinə ödədiyi rüsumun ona qaytarılmalı olduğunu, lakin

dəfələrlə icra qurumuna müraciət etməsinə baxmayaraq qərardadın həmin hissədə icra olunmadığını bildirmiş və dövlət rüsumunun geri qaytarılmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin şikayəti qanunamüvafiq qaydada araşdırılmış, qərardadın qəbul olunmasından bir il müddət keçməsinə baxmayaraq dövlət rüsumunun ona geri qaytarılmadığı məlum olmuş, şikayətlə bağlı aidiyyəti dövlət orqanlarına ünvanlanmış müraciətlərdən sonra, hüquq pozuntusu aradan qaldırılaraq dövlət rüsumu ərizəçiyə geri qaytarılmışdır.

**Ərizəçi E.** Ombudsmana müraciət edərək övladının saxlanması üçün alimentin ödənilməsi barədə çıxarılmış məhkəmə qətnaməsinin icra olunmadığını bildirmiş və müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətçinin tələbi ilə bağlı aidiyyəti quruma müraciət edilmiş, davam edən icra tədbirləri nəticəsində aliment öhdəliyi üzrə aylıq ödənişin və aliment borcunun ödənilməsi təmin edilmişdir.

**Ərizəçi Ə.** Ombudsmana müraciət edərək atasına məxsus fərdi yaşayış evində qanunsuz məskunlaşmış şəxslərin həmin evdən çıxarılması ilə bağlı məhkəmə qətnaməsinin icra olunmadığını, məsələ ilə bağlı dəfələrlə icra qurumuna etdiyi müraciətinin nəticəsiz qaldığını bildirmiş, məhkəmə qətnaməsinin icra olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin şikayəti qanunamüvafiq qaydada araşdırılmış, şikayətlə bağlı aidiyyəti dövlət orqanına ünvanlanmış müraciətdən sonra fərdi yaşayış evi və torpaq sahəsi boşaldılaraq tələbkara təhvil verilmiş, beləliklə məhkəmə qətnaməsi icra olunmuşdur.

Ümumilikdə, məhkəmə qərarlarının icra edilməməsi ilə bağlı daxil olan şikayətlərin əksəriyyəti aliment tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi ilə bağlı olmuşdur.

Müraciətlərin təhlili təcrübəsi göstərir ki, icra tədbirlərinin həyata keçirilməsində mövcud çətinliklər bəzən borclunun olduğu yerin müəyyən edilməməsi ilə bağlı olur. Bu zaman yerli icra qurumu tərəfindən borclunun axtarılması barədə qərar qəbul edilərək polis orqanlarına göndərilsə də, bəzən axtarış tədbirləri həyata keçirilmir və ya bu tədbirlər gecikdirilir. Həmin şikayətlərlə əlaqədar Ombudsman tərəfindən aidiyyəti üzrə ünvanlanmış sorğular əsasında borclunun yeri müəyyən olunaraq, yerli icra qurumuna təhvil verilmiş, icra tədbirləri davam etdirilmiş və bir sıra hallarda tələb təmin olunmuşdur.

Bu kimi halların qarşısının alınması məqsədilə aidiyyəti qurumlar arasında funksional əlaqələndirmə lazımi səviyyədə təşkil edilməli, məhkəmə qərarlarının icrası mexanizmləri təkmilləşdirilməli, zəruri təsir vasitələri effektiv olmalı, məhkəmə qərarlarının icrasına nəzarət gücləndirilməlidir.

Cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Onun əsl mahiyyəti cinayət törətmiş şəxslərin mənəvi, siyasi, fiziki və əmlak xarakterli məhrumiyyətlərə məruz qoymaqla, onları tənbeh etməkdən ibarətdir. Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq kimi faydalı məqsədlərə nail olmaq üçün tətbiq edilir.

Cəzanın çəkilməsi ilə yanaşı, ondan azad olmanın şərtləri də qanunvericiliklə tənzimlənir. Belə ki, Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş institutlardan biri olan cəzadan azad etmənin əsaslarına cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, xəstəliyə görə cəzanı çəkməkdən azad etmə, hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad etmə, amnistiya və əfvetmə aiddir ki, bunların hamısı cəza icra siyasətinin humanistləşdirilməsinə xidmət edir.

“Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamına uyğun olaraq cinayətlərin dekriminallaşdırılması, habelə azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz etmə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkumetmə institutlarının daha geniş tətbiq edilməsi, eləcə də digər istiqamətlər üzrə tədbirlər 2024-cü ildə də davam etdirilmişdir.

Məhkum olunmuş şəxslərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunması və cəzadan azad etmənin digər əsaslarının tətbiqi dövlətimizin humanizm siyasətinin uğurla inkişaf etdirilməsinin təzahürü olmaqla cinayət törətmiş şəxslərin islah olunma prosesinin sürətləndirilməsinə, onların sosial adaptasiyasına geniş imkan yaradır.

**Ərizəçi F.** Ombudsmana müraciət edərək 2 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edildiyini, cəzasının 7 ayını çəkdiyini, epilepsiya xəstəsi olduğunu, ailəsinin Abşeron rayonu, Xırdalan şəhərində yaşadığını, anasının ağır xəstəliyi, övladının sağlamlıq imkanının məhdud olması və maddi imkansızlıq səbəbindən ailə üzvlərinin görüşə gələ bilmədiyini qeyd etmiş və ailə üzvlərinin yaşayış yerinə yaxın ərazidə cəzasını çəkmək üçün Bakı şəhərindəki cəzaçəkmə müəssisəsinə köçürülməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətə qanunamüvafiq qaydada baxılmış və aidiyyəti dövlət orqanına verilmiş təklif və tövsiyələrdən sonra ərizəçinin cəzasını çəkdiyi müəssisədən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin eyni rejimli cəzaçəkmə müəssisəsinə köçürülməsi həyata keçirilmişdir.

Qeyd etmək lazımdır ki, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə məhkumun islah olunma prosesinin sürətləndirilməsinə, onun normal sosial faydalı həyata qaytarılmasına yardım edən institutdur.

2024-cü il ərzində cəzanın çəkilməsinin təxirə salınması və ya onun ləğv edilməsi, xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi ilə bağlı Ombudsmanın ünvanına müraciətlər daxil olmuş, müraciətlərə baxılarkən qanunvericiliyin tələblərinə, habelə

humanizm prinsipinə əsaslanaraq məhkumlar barədə təqdimat verilməsi ilə bağlı aidiyyəti quruma tövsiyələr edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinə əsasən hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq, o cümlədən səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxs tutulduğu və ya barəsində həbs qətimkan tədbiri seçilməsi haqqında qərar elan olunduğu andan görüşlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiəçisi və qanuni nümayəndəsi ilə təklikdə görüşə və konfidensial ünsiyyət saxlaya bilər. Hüquqi yardım istədiyini bildirən tutulmuş və ya həbs edilmiş şəxs hüquqi yardımı almayanadək dindirilməməli və ya onun dindirilməsi vəkilin iştirakı olmadan davam etdirilməməlidir.

Saxlanılan şəxslərin hüquqi yardım almaq və vəkillə görüşmək hüququ həmin şəxslərin pis rəftardan müdafiəsinin əsas təminatlarındandır. Ombudsmanın preventiv mexanizm funksiyalarının icrası məqsədilə cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlama yerlərində həyata keçirilmiş başçəkmələr zamanı saxlanılan şəxslərin həmin müəssisələrdə hüquq və azadlıqlarının təmini vəziyyəti ilə yanaşı, müdafiəçisi ilə görüşmək hüququnun təmin olunmasına şərait yaradılması məsələləri araşdırılmış və müəssisələrin rəhbərlərinə tutulan, həbs edilən və ya məhkum edilən şəxslərə hüquqi yardımın göstərilməsi üçün vəkil ilə ləyaqətli şəraitdə təklikdə görüşmək və konfidensial ünsiyyətin saxlanılması üçün lazımi şəraitin yaradılması tövsiyə olunmuşdur.

Ombudsman əhalinin peşəkar hüquqi yardımla təmin edilməsi və bununla da hüquq və azadlıqların daha etibarlı müdafiəsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də maarifləndirmə işinin təşkili istiqamətində Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası ilə əməkdaşlığı davam etdirmişdir.

Hüquqi yardım almaq üçün kifayət qədər vəsaiti olmayan şəxslərə hüquqi yardımın göstərilməsi həmin şəxslərin hüquq və azadlıqlarının səmərəli müdafiəsinə şərait yaratmaqla yanaşı, ədalət mühakiməsinin daha effektiv həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

Ölkə konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsi ilə yanaşı, inzibati qaydada müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada şikayət edə bilər.

Müraciətlərin araşdırılması zamanı dövlət orqanları, bələdiyyələr və digər qurumlarla əməkdaşlıq davam etdirilmiş, insan hüquqlarının pozulması ilə bağlı müvafiq hallar aşkar edildikdə, bu pozuntuların qarşısının alınması və hüquqların bərpası istiqamətində zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi G.** Ombudsmana müraciət edərək təsərrüfatla məşğul olduğunu, əkin sahəsinin suvarma suyu ilə təmin edilməsində çətinliklər yaşadığını, Məmmədrza Dizə kənd İnzibati ərazi dairəsi üzrə nümayəndəsinin ona qərəzli münasibəti olduğundan suvarma növbəsindən kənarlaşdırıldığını, ona su verilmədiyi üçün əkin sahəsinin məhv olduğunu bildirmiş və əkin sahəsinin suvarma suyu ilə təmin edilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti ilə əlaqədar aidiyyəti quruma müraciət olunmuş, ona qarşı edilmiş ayrı-seçkilik aradan qaldırılaraq əkin sahəsi suvarma suyu ilə təmin olunmuşdur.

**Ərizəçi Ğ.** Ombudsmana müraciət edərək heyvandarlıqla məşğul olduğunu, Yarımca kəndi və onun ətrafında yerləşən, heyvanların yemlənməsi üçün ümumi istifadəyə ayrılmış örüş sahələrinin Yarımca bələdiyyəsi və Yarımca kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi tərəfindən tədricən zəbt olunaraq əkin sahəsinə çevrildiyini, heyvanlarını yemləmək üçün uzaq ərazilərə və ya qadağan olunmuş qoruq ərazilərinə apardığı üçün ona tez-tez xəbərdarlıq edilərək barəsində cərimələr tətbiq olunduğunu bildirmiş və heyvanların yemlənməsi üçün istifadəyə ayrılmış örüş sahələrinin əvvəlki təyinatına qaytarılmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti qanunamüvafiq qaydada araşdırılmış, aidiyyəti dövlət orqanlarına verilmiş tövsiyədən sonra örüş sahələri əvvəlki təyinatına qaytarılaraq tələb təmin edilmişdir.

**Ərizəçi H.** Ombudsmana müraciət edərək valideynləri nikaha daxil olarkən anasının soyadını dəyişərək atasının soyadını seçdiyini, lakin anasının əvvəlki soyadı ilə adının qeyd olunduğu sənədlərin heç birində, hətta şəxsiyyət vəsiqəsində dəyişiklik edilmədiyi üçün, sənədlərdə uyğunsuzluq yarandığını bildirmiş və anasının soyadının dəyişdirilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti qanunamüvafiq qaydada araşdırılmış, aidiyyəti dövlət orqanı ilə qarşılıqlı əməkdaşlıq edilərək ərizəçinin anasının soyadı ilə bağlı sənədlərdə mövcud olan uyğunsuzluq aradan qaldırılaraq vətəndaşın tələbi təmin olunmuşdur.

**Ərizəçi X.** Ombudsmana müraciət edərək qızının 15 yaşı tamam olduğundan şəxsiyyət vəsiqəsinin alınması üçün Naxçıvan "ASAN xidmət" mərkəzinə müraciət etdiyini, ona nikah barədə məlumatın sistemdə görünmədiyinin bildirildiyini, məsələ ilə bağlı Qeydiyyat şöbəsinə müraciət etdiyi zaman elektron qeydiyyat sistemində qızının doğum tarixinin səhv yazıldığı üçün köməklik edilmədiyini, düzəliş üçün Naxçıvan şəhər Nikah Evinə göndərildiyini, nikah şəhadətnaməsinin, qızının doğum haqqında şəhadətnaməsinin, qızının şəxsiyyət vəsiqəsinin əsilini təqdim etməsinə baxmayaraq, doğum haqqında arxiv sənədinin tələb edildiyini bildirmiş, süründürməçiliyin qarşısının alınmasına və elektron qeydiyyat sistemində düzəlişin edilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti araşdırılaraq hüquq pozuntusu faktı aşkar olunmuş, qanunvericiliyin tələblərinə uyğun zəruri tədbirlər görüldükdən sonra ərizəçinin qızının doğum tarixi ilə bağlı elektron qeydiyyat sistemində düzəlişlər edilərək hüquq pozuntusu aradan qaldırılmışdır.

Qanunvericiliyə uyğun olaraq qeydiyyat şöbələri Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi vasitəsilə doğumun, nikahın bağlanmasının və pozulmasının, övladlığa götürmənin, atalığın müəyyən edilməsinin, adın, ata adının və soyadının dəyişdirilməsinin, ölümün dövlət qeydiyyatı aparılır, vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik edilir və ləğv edilir, itmiş akt qeydləri bərpa edilir, akt kitablarını saxlayır və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələr və ya arayışlar verirlər. Həmçinin bu informasiya sistemindəki məlumatların vətəndaşlıq vəziyyəti akt qeydlərindəki məlumatlara uyğunluğu yoxlanılmaqla şəxslərə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı haqqında təkrar şəhadətnamə və ya arayış verilir.

Vətəndaşların müraciətləri əsasında "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemində məlumatların yoxlanılmaması, o cümlədən mövcud səhvliklərin düzəldilməməsi, onların digər hüquqlarının həyata keçirilməsinə maneə yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinə əsasən şəxsiyyətin şərəf və ləyaqəti dövlət tərəfindən qorunur, heç bir hal şəxsiyyətin şərəf və ləyaqətinin alçaldılmasına əsas verə bilməz.

Şərəf və ləyaqətinin qorunması, hər bir insanın hüquqlarının əsas hissəsi olaraq hüquqi və etik baxımdan böyük əhəmiyyət kəsb edir. Şərəf və ləyaqət, insanların şəxsi və sosial həyatlarında yüksək qiymətləndirilən dəyərlərdir. Bu, insanın etibarı, cəmiyyətdəki nüfuzu, xarakteri və qiyməti ilə bağlıdır. İnsanların şərəf və ləyaqətinin qorunması həm hüquqi, həm də etik baxımdan mühafizə olunur.

Şərəf və ləyaqətin qorunması, həm fərdi hüquqların, həm də cəmiyyətin ümumi əxlaq normalarının qorunması baxımından əhəmiyyətlidir. Cəmiyyətin bu məsələyə verdiyi önəm, həm də sosial ədalət və insan hüquqlarının təmin edilməsində əsas rol oynayır.

**Ərizəçi I.** Ombudsmana müraciət edərək ona məxsus minik avtomobili ilə hərəkətdə olarkən yol polisləri tərəfindən saxlanıldığını, içkili olduğu iddia edilərək avtomobili ilə birlikdə Dövlət Yol Polisinə İdarəsinə aparıldığını, orada alkoqolu ölçən cihaz nasaz olduğundan başqa bir cihazla içkili olduğunun müəyyən edildiyini, lakin içkili olmadığını, iddia ilə razılaşmayaraq onun həkim müayinəsindən keçirilməsini tələb etsə də, yerinə yetirilmədiyini, protokol tərtib olunmadan avtomobilinin cərimə meydançasına aparıldığını, ona qarşı özbaşınalıq edildiyini bildirmiş, avtomobilinin cərimə meydançasından çıxarılmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti qanunamüvafiq qaydada araşdırılmış, zəruri tədbirlər görüldükdən sonra ərizəçi minik avtomobilini cərimə meydançasından çıxarmışdır.

Qeyd etmək lazımdır ki, hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən vicdanlı davranış hüququ və dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır.

**Ərizəçi İ.** Ombudsmana müraciət edərək sahibkarlıq subyekti barəsində başlanmış cinayət işində zərərçəkmiş və mülki iddiaçı qismində tanındığını, həmin iddiasından imtina etməsi üçün sahibkar tərəfindən təzyiqlərə və hədələrə məruz qaldığını,

himayəsində olan 2 övladından birinin əlilliyi olan şəxs olduğunu, ailəsinin maddi vəziyyətinin yaxşı olmadığını bildirmiş və ona qarşı edilmiş bu qanunsuz hərəkətlərin qarşısının alınmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən şikayətdə qeyd olunan halların araşdırılması zamanı cinayət əlamətləri aşkar edildiyindən "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 13.2.2-ci maddəsinə əsasən müraciət baxılması üçün Naxçıvan Muxtar Respublikasının Prokrorluğuna göndərilmişdir.

***İnformasiya əldə etmək hüququ.*** Azərbaycan Respublikasının Konstitusiyasında və insan hüquqlarına dair beynəlxalq sənədlərdə informasiya əldə etmək hüququ hər kəsin istənilən məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığını ehtiva edir.

İnformasiya azadlığı insan hüquq və azadlıqlarının təminatçısı olan cəmiyyətin mühüm xüsusiyyətidir və cəmiyyətdə baş verən dinamik proseslərdən xəbər tutmaq vətəndaşların əsas ehtiyaclarından olduğundan informasiya sahibi öz informasiya ehtiyatlarından hər kəsin sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə informasiya əldə etmək hüququnu bu qanunla müəyyənləşdirilmiş qaydada təmin etməyə borcludur.

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun icrasına nəzarəti həyata keçirən Ombudsman bu hüququn təmini, müdafiəsi və təbliği sahəsində geniş fəaliyyət həyata keçirməklə informasiya əldə etmək hüququnun daha səmərəli təmininə, informasiya cəmiyyətinin qurulmasına və açıq hökumətin təşviqinə istiqamətlənmiş islahatlara dəstək verir.

İnformasiya sahibi olan dövlət orqanları və bələdiyyələr, vəzifəli şəxslər tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması halları ilə bağlı Ombudsmanın ünvanına **1 şikayət daxil olmuş,** şikayətdə əks olunmuş halların araşdırılması zamanı informasiya sahibi tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilib-edilməməsi aydınlaşdırılmış və ərizəçinin informasiya sahibinin informasiya əldə etmək üçün yaratdığı imkanlardan kifayət qədər səmərəli istifadə etmədiyi müəyyən olunmuşdur.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 13-1.2-ci maddəsinə görə şikayət konkret informasiya sahibi olan dövlət orqanının, yerli özünüidarə orqanının və ya vəzifəli şəxsin fəaliyyəti barəsində olmadıqda, həmin iş üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda, habelə ərizəçi informasiya sahibi olan dövlət orqanının, yerli özünüidarə orqanının və ya vəzifəli şəxsin informasiya əldə etmək üçün yaratdığı imkanlardan kifayət qədər səmərəli istifadə etmədikdə Ombudsman şikayətə baxmır.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na əsasən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və onun Aparat rəhbəri İnzibati Xətalar Məcəlləsinin 371 – 374, 381.2,

381.3 və 554-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyətinə malikdir.

Hesabat dövründə qeyd olunan hallarla bağlı inzibati xəta haqqında protokol tərtib olunmamış, informasiya sahibləri barəsində inzibati tənbeh tədbirlərinin tətbiqinə dair qərar qəbul edilməmişdir.

Muxtar respublikada bir çox dövlət qurumlarının rəsmi internet səhifələrindəki onlayn müraciət bölmələrinin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yenilənməsinə ehtiyac vardır. Bu baxımdan informasiya sorğularının onlayn qaydada verilməsinin təmin edilməsi məqsədilə dövlət qurumlarının rəsmi internet səhifələrində mövcud olan onlayn müraciət bölmələrində "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq ayrıca "informasiya sorğusu" yarımbölməsinin əlavə edilməsi zəruridir.

Qanunvericiliyin tələblərini nəzərə alaraq Ombudsman informasiya sahibləri tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinin, xüsusilə verilən informasiya sorğularına qanunla müəyyən olunmuş qaydada və müddətdə cavab verilməsinin, informasiya sahibi olan hər bir dövlət orqanının rəsmi internet saytında müraciətlərdən əlavə "sorğu butonu" yarımbölməsinin yaradılmasının və informasiya məsələləri üzrə vəzifəli şəxs təyin etməsinin, yaxud struktur bölmə yaratmasının zəruriliyini vurğulayaraq müvafiq dövlət orqanlarına tövsiyə məktubları ünvanlamışdır.

Tövsiyə məktublarından sonra Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi Publik Hüquqi Şəxsi, Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən "sorğu butonu" yaradılmış, həmçinin Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Muxtar Respublikası Turizm Departamenti və Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsi tərəfindən informasiya məsələləri üzrə vəzifəli şəxs təyin edilmiş, eləcə də Naxçıvan Muxtar Respublikası Turizm Departamenti, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Culfa Rayon İcra Hakimiyyəti tərəfindən "sorğu butonu" bölməsinin yaradılması üçün Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə müraciət ünvanlandığı müəyyən olunmuşdur. Bununla yanaşı, hələ də bəzi qurumların yaratdıqları informasiya ehtiyatları qanunvericiliyin tələblərinə cavab vermir.

Qeyd olunanlar sorğuçuların müvafiq qurumlara əlçatanlığını təmin etməklə yanaşı, informasiya əldə etmək hüququnun daha effektiv təmin edilməsində və qurumlara münasibətdə yarana biləcək neqativ halların qarşısının alınmasında əhəmiyyət kəsb edir.

İnformasiya əldə etmək hüququnun təbliği, bu hüquqla bağlı məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Culfa, Ordubad və Kəngərli rayon icra hakimiyyət-lərində maarifləndirmə tədbirləri həyata keçirilmiş, informasiya sahibi olan dövlət orqanlarının, bələdiyyələrin və vəzifəli şəxslərin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə

yetirməsinə nəzarətin həyata keçirilməsi, informasiya əldə etmək hüququnun pozulması ilə əlaqədar daxil olan müraciətlərə baxılması və cavablandırılması barədə iştirakçılara məlumat verilmişdir. Ümumilikdə, informasiya sahəsində hüquq və azadlıqların təmin edilməsi məqsədilə keçirilmiş tədbirlərdə 172 nəfər iştirak etmişdir.

***Müraciət etmək hüququ.*** Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə əsasən vətəndaşların dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

Müraciətlərin analitik təhlili zamanı müəyyən olunan problemlərdən biri də aidiyyəti dövlət orqanlarına vətəndaşların etdiyi müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və vaxtında baxılmaması, həmçinin yazılı cavab verilməməsidir. Müvəkkilə ünvanlanmış bu müraciətlər qanunamüvafiq qaydada araşdırılmış, hərəkət və ya hərəkətsizliyi nəticəsində vətəndaşların hüquqlarını pozan dövlət orqanlarından müvafiq tədbirlərin görülməsi tələb edildikdən sonra hüquq pozuntuları aradan qaldırılaraq vətəndaşların hüquqları təmin edilmişdir.

**Ərizəçi J.** Ombudsmana müraciət edərək Naxçıvan Şəhər Məhkəməsinin müraciətinə cavab vermədiyini bildirmiş, pozulmuş hüququnun bərpa olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən müraciət qanunamüvafiq qaydada araşdırılmış, hüquq pozuntusu aradan qaldırılaraq, ərizəçinin müraciətinə qanunvericiliklə müəyyən olunmuş qaydada yazılı cavab verilmişdir.

**Ərizəçi K.** Ombudsmana müraciət edərək yaşayış evinə gediş-gəlişin rahat və təhlükəsiz təmin olunması üçün dəfələrlə Şahbuz Rayon İcra Hakimiyyətinə müraciət etməsinə baxmayaraq, müraciətinin nəticəsiz qaldığını bildirmiş, darvaza qapısının qarşısındakı bordürün sökülməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətlə bağlı aidiyyəti quruma ünvanlanmış müraciətdən sonra ərizəçinin müraciətinə qanunvericiliklə müəyyən olunmuş qaydada baxılmış, bordür sökülərək fərdi yaşayış evinə gedən yola asfalt örtüyü çəkilmiş, ərizəçinin təhlükəsiz, rahat gediş-gəlişi təmin edilmişdir.

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri vətəndaşların təkliflərini, ərizə və şikayətlərini qəbul etməli, onlara qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxmalı və cavab verməlidirlər. Müraciətə baxan subyektlərin vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə baxarkən müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara yazılı formada məlumat verməli, müraciət təmin edilmədikdə bunun səbəblərini göstərməli, şikayət vermək qaydasını izah etməlidirlər.

Həmin Qanunun 14-cü maddəsinə əsasən müraciətinə baxılan vətəndaşın müraciətinə baxılmasının nəticəsi barədə yazılı cavab almaq hüququ vardır.

Qanunvericiliyin qeyd olunan müddəalarından aydın olur ki, vətəndaşların müraciətlərinə qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxılmalı, müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara gecikdirilmədən yazılı cavab verilməlidir.

Belə ki, vətəndaşların müraciətlərinə cavab verilməməsi və ya heç bir əsas olmadan gecikdirilərək cavab verilməsi onların müraciət etmək hüququnu əhəmiyyətsiz edir.

Vətəndaşların müraciətlərinə cavab verilməməsi və ya heç bir əsas olmadan müraciətlərə cavab verilməsinin gecikdirilməsi ciddi nöqsan hesab olunduğundan bu nöqsanlar aradan qaldırılmalı və gələcəkdə bu və ya buna bənzər halların baş verməməsi üçün vətəndaşların müraciət etmək kimi konstitusion hüququnun həyata keçirilməsinə şərait yaradılmalı və dövlət orqanları bu hüquqdan irəli gələn vəzifələri lazımınca yerinə yetirməlidirlər.

***Seçki hüququnun təmini.*** Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

Ölkəmizin Konstitusiyasında və respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş vətəndaşların seçki hüququnun təmin edilməsi Ombudsmanın diqqət mərkəzində olmuşdur.

Növbədənkənar prezident seçkilərinə və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərə, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərə hazırlıq dövründə Ombudsmanın təşəbbüsü və təşkilatçılığı ilə dairə və məntəqə seçki komissiyalarının üzvlərinin, aidiyyəti dövlət orqanlarının və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə muxtar respublikanın şəhər və rayonlarında maarifləndirmə tədbirləri keçirilmişdir.

Ombudsman və aparatın əməkdaşları növbədənkənar prezident seçkilərində 6 seçki dairəsi üzrə 210 seçki məntəqəsində, həmçinin Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 6 seçki dairəsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə isə 45 seçki dairəsi üzrə 249 seçki məntəqəsində, o cümlədən hərbi hissələrdə və penitensiar müəssisələrdə müstəqil olaraq özlərinin təşəbbüsləri ilə seçkiləri müşahidə etmişlər.

Ombudsman Naxçıvan şəhərinin bir sıra seçki dairələri üzrə seçki məntəqələrində təşkil olunmuş səsvermə prosesini izləmiş, komissiya sədrləri və üzvləri ilə görüşmüş, seçkilərlə əlaqədar ümumi vəziyyəti öyrənmiş, səsvermə prosesi ilə bağlı müvafiq məlumatlar almışdır.

Ombudsman muxtar respublikanın müxtəlif bölgələrində səsvermə prosesində müşahidəçi qismində iştirak edən, eyni zamanda seçki hüququnun təmin edilməsi vəziyyətinin monitorinqini həyata keçirən aparat əməkdaşlarından mütəmadi olaraq məlumatlar almış, seçki prosesini və seçicilərin hüquqlarının təmini ilə bağlı vəziyyəti diqqətdə saxlamışdır.

Monitorinqlər göstərmişdir ki, vətəndaşların seçki hüquqları təmin olunmuş, əlilliyi olan, yaşlı və müxtəlif xəstəliklərdən əziyyət çəkən şəxslərin seçki hüququnun həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərindən irəli gələn şərait yaradılmışdır.

Seçki günü seçki hüquqlarının pozulması ilə bağlı Ombudsmanın ünvanına hər hansı müraciət daxil olmamışdır.

Muxtar respublikada həyata keçirilmiş seçkilər demokratik, azad, şəffaf, ədalətli, seçki qanunvericiliyi və beynəlxalq standartlarla müəyyən edilmiş qaydada keçirilmiş,

ölkəmizin demokratik hüquqi dövlət quruculuğu və insan hüquqlarının təmin edilməsi prinsiplərinə sadiq olduğu nümayiş etdirilmişdir.

### 1.2 İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi

***Əmək hüququ.*** Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

Əmək münasibətləri işçi qüvvəsinin istehsal vasitələrinə tətbiqi nəticəsində yaranan iradəvi ictimai münasibətlərdir. Bu münasibətlərin hüquqi tənziminin obyektini isə insanların canlı əməyi, onun təşkili və şərtləri təşkil edir.

Əmək hüququ, əmək münasibətlərini tənzimləyən hüquq sahəsidir və işçi ilə işəgötürən arasındakı münasibətləri, onların hüquq və vəzifələrini müəyyən edir. Hər bir insanın əmək hüququ öz yaşayışını təmin etmək məqsədilə qazanc əldə etmək, sərf edəcəyi əməyin formasını və ya növünü azad surətdə seçmək, habelə əsassız olaraq işdən azad edilmədən müdafiə imkanlarını özündə birləşdirir. Bu hüququn təmin edilməsi insanların fərdi və ictimai rifahının inkişafına, həmçinin mövcud neqativ halların aradan qaldırılmasına xidmət edir.

Hesabat dövründə əmək hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə əməkhaqqının ödənilməməsi və ya ödənilməsinin gecikdirilməsi, istehsalat xəsarətinə görə ödəncin, sığorta haqqının, habelə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müvafiq müavinətlərin, istifadə edilməmiş əmək məzuniyyətinə görə kompensasiyaların verilməməsi, son haqq-hesabın düzgün hesablanmaması və ya ödənilməməsi, əmək müqaviləsinin ləğv edilməsinin qarşısının alınmasına, əmək müqaviləsi müddətinin uzadılmasına, işlə təmin olunmasına köməklik göstərilməsi, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan əlilliyi olan şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların verilməməsi və bu kimi digər məsələlər öz əksini tapmışdır. Həmin müraciətlər üzrə aidiyyəti dövlət qurumlarına, o cümlədən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə sorğular göndərilmiş, aparılmış araşdırmalar nəticəsində müəyyən edilmiş hüquq pozuntularının aradan qaldırılması istiqamətində qanunamüvafiq tədbirlər görülmüşdür.

**Ərizəçi Q.** Ombudsmana müraciət edərək coğrafiya müəllimi vəzifəsində işlədiyini, sosial məzuniyyətə çıxdığını, işlədiyi müvafiq tədris ili üçün əsas əmək məzuniyyəti sosial məzuniyyət dövrü ilə üst-üstə düşdüyü üçün həmin iş ilində istifadə etmədiyi əmək məzuniyyətinə görə ona kompensasiyanın ödənilmədiyini, məsələ ilə bağlı dəfələrlə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə və Şahbuz Rayon Təhsil Şöbəsinə müraciət etsə də, heç bir nəticənin olmadığını bildirmiş və istifadə etmədiyi əmək məzuniyyətinə görə kompensasiyanın ödənilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciətində qeyd etdiyi halların araşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə sorğu göndərilmiş, onun əmək müqaviləsinə xitam verilərkən əmək qanunvericiliyinin tələblərinə əməl olunmadığı müəyyənləşdirilmiş, Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən inzibati

xətanın əlamətləri müəyyən edildiyindən "İnzibati xəta haqqında Protokol" tərtib olunmuş, ərizəçiyə konpensasiya ödənilərək hüquq pozuntusu aradan qaldırılmışdır.

Əmək qanunvericiliyinin tələblərinə əsasən, əmək müqaviləsinə xitam verilməsi barədə işəgötürənin əmri (sərəncamı, qərarı) onun tərəfindən imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməlidir. Bu əmrin surəti, işçinin əmək kitabçası və işəgötürənin son haqq-hesabı (istifadə edilməmiş) əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əmək haqqı və digər ödəmələr ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir. Qeyd olunanlara baxmayaraq, bir sıra hallarda qanunvericiliyin bu tələblərinin işəgötürənlər tərəfindən pozulması faktları müəyyən edilmiş, görülmüş tədbirlər nəticəsində hüquqların bərpası təmin olunmuşdur.

**Ərizəçi L.** Ombudsmana müraciət edərək oğlunun uzun müddət Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Sosial Müdafiə Fondunun şəhər-rayon şöbələrində müxtəlif vəzifələrdə işlədiyini, lakin hər hansı səbəb bildirilmədən əmək müqaviləsinə xitam verildiyini, onun himayəsində biri sağlamlıq imkanları məhdud olmaqla iki yetkinlik yaşına çatmayan övladının olduğunu qeyd etmiş və oğlunun əvvəlki işinə bərpa olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti qanunamüvafiq qaydada araşdırılmış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 70-ci maddəsinin "b" bəndinə əsasən ərizəçinin işlədiyi vəzifə üzrə ştatın ixtisar olunması səbəbindən əmək müqaviləsi ləğv edilərkən onun öhdəsində 18 yaşınadək əlilliyi müəyyən edilmiş övladının olması nəzərə alınmadığı, beləliklə əmək qanunvericiliyinin ciddi və kobud pozuntusuna yol verildiyi müəyyən olunmuşdur.

Şikayətlə bağlı hüquq pozmanı törədən orqana ünvanlanmış müraciətdən sonra ərizəçinin pozulmuş əmək hüququ bərpa edilmiş, beləliklə ərizəçi əvvəlki işinə geri qaytarılaraq hüquq pozuntusu aradan qaldırılmışdır.

**Ərizəçi M.** Ombudsmana ünvanladığı müraciətində Babək Rayon Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsində maşinist-mexanik vəzifəsində işlədiyini, İdarənin rəisi tərəfindən işlədiyi vəzifə üzrə ştatın ixtisar edilməsi ilə bağlı əmək müqaviləsinin ləğv ediləcəyinin və öz razılığı ilə işdən azad olunması üçün ərizə yazmasının tələb edildiyini, lakin qanunvericiliyin tələblərinə uyğun olaraq rəsmi xəbərdar edilmədiyini, həmçinin işdənçıxarma müavinətinin ödənilmədiyini, məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə müraciət etdiyi zaman həmin ştatın ixtisar edilmədiyinin və işinə geri qayıda biləcəyinin ona bildirildiyini, işə getməməsinin əmək vəzifələrinin kobud şəkildə pozuntusu hesab edilərək işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsinə səbəb ola biləcəyini qeyd etmiş və pozulmuş əmək hüququnun bərpa olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciətində qeyd etdiyi halların araşdırılması zamanı şikayət olunan subyektin mülahizələri öyrənilmiş, müraciətdə qeyd olunan halların həqiqəti əks etdirdiyi müəyyən olunmuş, ərizəçi əvvəlki işinə geri qaytarılaraq pozulmuş əmək hüququ bərpa olunmuşdur.

**Ərizəçi N.** Ombudsmana müraciət edərək xəbəri olmadan işdən azad edildiyini, şikayət etdiyi üçün müvəqqəti əmək müqaviləsi ilə işə götürüldüyünü və müqavilənin

müddətinin bitəcəyini bildirmiş, daimi işlə təmin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti qanunamüvafiq qaydada araşdırılmış, aidiyyəti dövlət qurumlarına müraciət edildikdən sonra, onun maddi və ailə vəziyyəti nəzərə alınaraq daimi işlə təmin olunmuşdur.

Ombudsman iş yerlərində işçilərin hüquqlarının və qanuni mənafelərinin etibarlı müdafiəsini, pozulmuş hüquqların bərpası üçün müvafiq tədbirlərin görülməsini, əmək qanunvericiliyinin və digər normativ-hüquqi aktların tələblərinə ciddi şəkildə əməl olunmasına nəzarətin gücləndirilməsini təklif edir.

***Sosial təminat hüququ.*** Əhalinin, xüsusilə həssas qrupların hüquqlarının müdafiəsi, onların rifah halının getdikcə yaxşılaşması, yoxsulluğun səviyyəsinin daha da azalması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindəndir. Dövlətin sosial funksiyası ilə birbaşa bağlı olan sosial təminat hüququ hər bir şəxsin layiqli yaşayış səviyyəsini təmin etməyə xidmət edir və dövlətin iqtisadi inkişafından asılı olaraq realizə edilir.

Əhalinin məşğulluğunun təmin olunması, yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması, vətəndaşların ünvanlı dövlət sosial yardımından asılılığının aradan qaldırılması muxtar respublikada sosial siyasətin əsas istiqamətlərindən birini təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasında ehtiva olunmuş bu hüquqdan özünü saxlamaq qabiliyyətindən məhrum olmuş, yaxud başqalarına nisbətən cəmiyyətdə daha çox sosial müdafiəyə ehtiyacı olan şəxslər öz yaşayışlarını təmin etmək üçün yararlanırlar.

Sosial təminat hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olan müraciətlər pensiya təminatı hüququnun həyata keçirilməməsi, sosial müavinətlərin, o cümlədən ünvanlı dövlət sosial yardımının təyin olunmaması, sosial sığorta haqlarının fərdi şəxsi hesaba əlavə edilməməsi, özünüməşğulluq proqramına cəlb edilmə və əlilliyin müəyyən olunması ilə bağlı olmuş, müraciətlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

Əmək pensiyası insanların qocalıq, əlillik və ailə başçısını itirmə kimi həyat şəraitində maddi təminatını təmin etmək məqsədi daşıyır. Əmək pensiyası almaq hüququna malik olan şəxslərə pensiyanın təyin edilməsi, habelə ödənişlərin vaxtında aparılması onların sosial rifahında olduqca vacib amildir.

Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

Pensiyanın təyin edilməməsi, düzgün hesablanmaması, müvafiq dövrlər üzrə iş stajının nəzərə alınmaması, pensiyaya əlavələrin hesablanmaması halları ilə bağlı zəruri araşdırmalar aparılmışdır.

Qeyd etmək lazımdır ki, ümumi əsaslarla yaşa görə əmək pensiyası hüququnun yaranması üçün əsas şərt müvafiq olaraq şəxsin pensiya yaş həddinə çatması ilə yanaşı, minimum pensiya təyinatına imkan verən pensiya kapitalı və (və ya) minimum staj tələbinin yerinə yetirilməsidir.

**Ərizəçi O.** Ombudsmana müraciət edərək uzun illər ərzində Uzunoba kənd tam orta məktəbində kimya-biologiya müəllimi vəzifəsində işlədiyini, pensiya yaşına çatdığından əmək pensiyası almaq üçün Babək Rayon Təhsil Şöbəsinə müraciət etdiyini, Şöbə tərəfindən onun əmək haqqının sığorta hissəsinin texniki səhv nəticəsində başqa şəxsin hesabına köçürüldüyünün məlum olduğunu, ona əmək pensiyası təyin olunması üçün zəruri sənədlərin Babək Rayon Təhsil Şöbəsi tərəfindən təqdim olunmadığını, süründürməçiliyə məruz qaldığını, məsələ ilə əlaqədar dəfələrlə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə müraciət etsə də, heç bir nəticənin olmadığını bildirmiş və pozulmuş əmək pensiyası təminatı hüququnun bərpa olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin qanunvericiliyin tələblərinə uyğun araşdırılması zamanı vətəndaşın əmək pensiyası təminatı hüququnun pozulduğu və süründürməçiliyə məruz qaldığı müəyyən edilmiş, şikayətlə bağlı aidiyyəti dövlət orqanına ünvanlanmış müraciətdən sonra hüquq pozuntusu aradan qaldırılaraq ərizəçiyə pensiya təyin olunmuşdur. Həmçinin 2021-ci ilin may ayından 2024-cü ilin noyabr ayınadək olan dövr üçün hesablanmış və ödənilməmiş pul vəsaiti əvvəlki ayların sayına bölünərək aylıq pensiyanın üzərinə əlavə edilmişdir.

**Ərizəçi Ö.** Ombudsmana müraciət edərək uzun müddət ərzində Babək Rayon İcra Hakimiyyətində müvafiq vəzifələrdə işlədiyini, ona yaşa görə əmək pensiyası təyin edildiyini, qanunvericiliyin tələblərinə uyğun olaraq aylıq pensiyasının 6 misli məbləğində birdəfəlik haqq ödənilərkən, dövlət qulluqçularının aylıq vəzifə maaşlarına edilən artımın nəzərə alınmadığını, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsin Babək Rayon İdarəsi tərəfindən təqdim olunmuş arayışa əsasən əlavə vəsaitin ödənilməsi üçün zəruri sənədlərin Babək Rayon İcra Hakimiyyəti tərəfindən Babək Rayon Maliyyə Şöbəsinə təqdim edildiyini, məsələ ilə bağlı dəfələrlə Maliyyə Şöbəsinə müraciət etdiyini, lakin ona əlavənin ödənilmədiyini, daha sonra Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinə müraciət etdiyi zaman ona məsələnin araşdırılacağının bildirildiyini, lakin süründürməçiliyə yol verilərək heç bir nəticə olmadığını qeyd etmiş və həmin əlavənin ödənilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyindən və Babək Rayon İcra Hakimiyyətindən pozulmuş hüququn bərpa olunması tələb edilsə də, birdəfəlik haqqın qalıq məbləğinin ödənilməsi istiqamətində heç bir zəruri tədbir görülməmiş, beləliklə ərizəçinin pozulmuş sosial təminat hüququ bərpa olunmamışdır.

Ombudsman vətəndaşların sosial təminatının yaxşılaşdırılmasını, onların layiqli həyat səviyyəsinin təmin edilməsinə şərait yaradılmasını, bütün aidiyyəti qurumlar tərəfindən hüquqların bərpasına nail olunması məqsədilə zəruri tədbirlərin görülməsini, bu tədbirləri həyata keçirməyən vəzifəli şəxslərin barəsində məsuliyyət tədbirlərinin tətbiq edilməsini zəruri hesab edir.

**Ərizəçi P.** Ombudsmana müraciət edərək vəfat etmiş qızının övladının onun qəyyumluğuna verildiyini, 18 yaşı tamam olduğu üçün ona ödənilən sosial müavinətin dayandırıldığını, nəvəsinin ödənişli əsaslarla ali təhsil müəssisəsinə qəbul olduğunu, təhsil

haqqını ödəməyə maddi imkanının olmadığını bildirmiş, nəvəsinə ödənilən müavinətin bərpa olunmasına köməklik göstərilməsini xahiş etmişdir. Müraciət qanunvericliyin tələblərinə uyğun araşdırılmış, aidiyyəti dövlət qurumu ilə əməkdaşlıq-dan sonra sosial müavinət yenidən təyin olunaraq ərizəçiyə köməklik göstərilmişdir.

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin təhlili göstərir ki, vətəndaşlara bu yardımın təyin edilməsi üçün "Ünvanlı yardım" (VEMTAS) altsistemi üzərindən elektron qaydada müraciət etməkdə, qeydiyyatdan keçərkən zəruri məlumatları sistemə daxil etməkdə vətəndaşlar bəzi çətinliklərlə üzləşirlər. Nəticədə ailənin maddi-məişət şəraitinin müayinəsi aparılarkən informasiya-ların natamam olması səbəbindən sosial yardımın təyin olunmasından imtina edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"na əsasən, müraciətin qəbul olunduğu gün VEMTAS tərəfindən seçilmiş nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun struktur bölmələrinin və ya "DOST" mərkəzlərinin sosial yardım üzrə işçisinə bu Qaydalara uyğun ailənin maddi-məişət şəraitinin müayinəsinin aparılması barədə tapşırıq göndərilir. Həmin işçi müvafiq proqram təminatı ilə təchiz edilmiş xüsusi texniki avadanlıqlar vasitəsilə ailəni təmsil edən şəxsin iştirakı ilə video və foto çəkilişi əsasında ailənin maddi-məişət şəraitinin müayinəsini həyata keçirməli və nəticələrini gücləndirilmiş elektron imza ilə təsdiqlə-yərək real vaxt rejimində VEMTAS-a ötürməlidir.

**Ərizəçi R.** Ombudsmana müraciət edərək qızının tək ailə başçısı kimi üç övladını saxladığını, maddi vəziyyətlərinin yaxşı olmadığını, aztəminatlı ailə kimi ünvanlı dövlət sosial yardımının təyin olunması ilə əlaqədar etdiyi müraciətlərin nəticəsiz qaldığını bildirmiş, maddi vəziyyəti nəzərə alınaraq qızının ailəsinə sosial yardımın təyin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanmış müraciətdən sonra vətəndaşın "Ünvanlı yardım" (VEMTAS) altsisteminə daxil etdiyi müvafiq müraciəti əsasında onun ailəsinə aylıq 477.83 manat məbləğində sosial yardım təyin edilmişdir.

"Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın 2-ci bəndinə əsasən sosial yardımın alınması üçün ailəni təmsil edən şəxs Elektron Hökumət İnformasiya Sistemi və ya "e-sosial" internet portalında yerləşdirilmiş "Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi" elektron xidmətdən istifadə etməklə "Ərizə-bəyannamə"ni dolduraraq VEMTAS altsisteminə göndərir. Sosial yardımın alınması üçün müraciətlər VEMTAS tərəfindən 15 (on beş) iş günü müddətində araşdırılır və sosial yardımın təyin olunması və ya təyin olunmasından imtina edilməsi barədə müvafiq qərar çıxarılır.

Sosial təminat hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş bir sıra müraciətlərdə əlilliyin qiymətləndirilməsi, əlilliyə görə müavinətin təyin edilməsi, müayinə və müalicənin aparılmasında köməyin göstərilməsi, dərman preparatları və

köməkçi vasitələrlə təminat məsələləri öz əksini tapmışdır. Bu qəbildən olan müraciətlər üzrə səlahiyyətli dövlət qurumlarına sorğular verilmiş və problemlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi S.** Ombudsmana müraciət edərək ürək xəstəliyi ilə əlaqədar Culfa Rayon Mərkəzi Xəstəxanasında və Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzində müalicə olunduğunu, 6 (altı) ay müddətində müalicədə olmasına baxmayaraq, xəstəliyinin sağalmadığını, əlilliyin müəyyən olunması üçün sənədlərinin Culfa Rayon Mərkəzi Xəstəxanasının həkim-məsləhət komissiyasına göndərildiyini, həkim-məsləhət komissiyası tərəfindən sənədlərinə baxılaraq ona orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyin müəyyən olunacağının bildirildiyini, əlilliyinin qiymətləndirilməsi məqsədilə göndərişin Naxçıvan Tibbi-Sosial Ekspert Komissiyasına göndərildiyini, lakin göndərişin düzgün tərtib olunmaması əsas gətirilərək əlilliyin qiymətləndiril-məsindən imtina olunduğunu, daha sonra göndərişin Naxçıvan Tibbi-sosial Ekspert Komissiyasına yenidən göndərilməsinə baxmayaraq, müxtəlif səbəblərdən əlilliyin qiymətləndirilməsindən imtina olunduğunu, müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, xəstəliyi ilə əlaqədar əlilliyin müəyyən olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı əlilliyin qiymətlənidirilməsi üçün göndərişlərin tibb müəssisəsi tərəfindən Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sisteminə daxil edildiyi, lakin göndərişlərin natamam doldurulması səbəbindən əlilliyin müəyyən olunmasından imtina edildiyi məlum olmuş, aidiyyəti quruma müraciət olunduqdan sonra Naxçıvan Tibbi-Sosial Ekspert Komissiyasında ərizəçinin əyani müayinəsi aparılmış, müayinə nəticələrinə əsasən xəstəlik əlilliyin müəyyən olunmasına əsas verdiyi üçün ərizəçiyə orqanizmin funksiyalarının 50 faiz pozulmasına görə əlillik təyin edilmişdir.

**Ərizəçi Ş.** Ombudsmana müraciət edərək oğlunun epilepsiya xəstəliyindən əziyyət çəkdiyini, Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında 33 gün stasionar şəraitdə olmaqla, ümumilikdə 3 ay ərzində ambulator şəraitdə müalicə aldığını, oğlunun 18 yaşı tamam olduğundan müayinə və müalicə edilməsi üçün Culfa Rayon Mərkəzi Xəstəxanasına göndərildiyini, bir neçə ay ərzində ambulator və stasionar şəraitdə müalicə aldığını, oğlunun əlilliyinin qiymətləndirilməsi məqsədilə verilmiş tibbi-sosial ekspertiza müayinəsinə göndərişin natamam doldurulması səbəbindən Komissiya tərəfindən əlilliyin qiymətləndirilməsindən imtina olunduğunu, yenidən qiymətləndirilmənin həyata keçirilməsi üçün xəstəxanaya müraciət etsə də, oğlunun ambulator şəraitdə müalicə alması üçün qeydiyyata alınmadığını bildirmiş, oğlunun ambulator şəraitdə müalicə almasına və epikrizin verilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətə qanunamüvafiq qaydada baxılmış, hüquq pozuntusu aradan qaldırılaraq ərizəçinin oğlunun ambulator şəraitdə müalicə alması üçün qeydiyyata alınması təmin edilmiş, bununla yanaşı müraciətdə qeyd olunmayan hallar aşkar edilərək "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 12.5-ci maddəsinə əsasən araşdırılmış, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq edilərək ərizəçinin oğluna 2 il müddətinə orqanizm funksiyalarının 70%

pozulması ilə əlaqədar əlillik təyin olunmuş və vətəndaş Ombudsmana təşəkkür ərizəsi ünvanlayaraq müraciətinin təmin olunmasına, xüsusilə də müraciətində qeyd etmədiyi halda oğluna əlilliyin təyin olunmasında köməklik göstərildiyi üçün təşəkkürünü bildirmişdir.

Müraciətlər əsasında aparılan təhlil nəticəsində məlum olmuşdur ki, tibbi-sosial ekspert komissiyasının fəaliyyətinin təkmilləşdirilməsinə baxmayaraq, hələ də bu sahədə problemlər mövcuddur. Bir sıra hallarda elektron sistemə daxil edilən göndərişlərin natamam tərtibi, şəxsin əlillik vəziyyətini müəyyən etməyə əsas yaradan zəruri qeydlərin göndərişdə olmaması şəxsə əlilliyin təyin edilməsi ilə bağlı qərar verilməsində çətinliklər yaradır.

Belə ki, həkim məsləhət komissiyaları tərəfindən rəsmiləşdirilmiş bir sıra göndərişlər müəyyən edilmiş tələblərə cavab vermədiyi üçün əlillik dərəcəsinin qiymətləndirilməsindən imtina edilir. Qeyd olunan hallarla bağlı əlilliyin müəyyən olunması, yenidən qiymətləndirilməsi, habelə göndərişlərin verilməsindən və əlilliyin qiymətləndirilməsindən imtina edilməsinə dair qərarların vətəndaşlara vaxtında verilməsi istiqamətində qanunvericiliyin tələblərinə əməl olunmalı, nöqsanların aradan qaldırılması üçün müvafiq sahədə fəaliyyət təkmilləşdirilməlidir.

Bununla yanaşı, əlilliyin təyin edilməsi üçün rəsmiləşdirilmiş göndərişin natamam doldurulması kimi neqativ halların qarşısının alınması məqsədilə rəsmiləşdirilmiş göndərişlərə dair qərarların qəbul edilməsinə yanaşma dəyişməli, həkim məsləhət komissiyaları ilə əlaqələndirmə işi təkmilləşdirilməli, əlçatanlıq və operativlik təmin olunmalı, süründürməçilik hallarına yol verilməməlidir.

Əmək pensiyası və sosial müdafiə sahəsində digər hüquqların təmin edilməsi üçün sığortaedənlər müəyyən edilmiş müddət daxilində sosial sığorta haqqını sığortaçıya ödəməli, eyni zamanda qanunvericiliklə müəyyən edilmiş qaydada sığortaolunanların məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirləri, eləcə də xeyrinə ödənilmiş məcburi dövlət sosial sığorta haqları sığortaolunanların fərdi şəxsi hesablarında əks olunmalıdır.

**Ərizəçi T.** Ombudsmana müraciət edərək 2010-cu ildən etibarən Sədərək-Şərur istiqaməti üzrə sürücü işlədiyini, sosial sığorta haqqını vaxtı-vaxtında ödədiyini və etdiyi ödənişlərin qəbzlərinin olduğunu, lakin 2019-2024-cü illər üzrə sosial sığorta ödənişlərinin Dövlət Vergi Xidmətinin sistemində görünsə də, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Sosial Müdafiə Fondunun sistemində görünmədiyini, məsələ ilə bağlı Fondun Şərur və Sədərək rayon şöbələrinə yazılı və şifahi müraciətlər etdiyini, lakin nəticə olmadığını bildirmiş, könüllü formada ödədiyi sosial sığorta ödənişlərinin sistemə daxil edilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı ərizəçinin 2019-2024-cü illər üzrə həmin ödənişləri vaxtı-vaxtında ödədiyi, lakin İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin “Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi” tərəfindən fiziki şəxsə aid 2019-cu ilin I rübündən başqa heç bir məlumatın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemi”nə ötürülmədiyi, bu

səbəbdən ödənilmiş sosial sığorta haqlarının fərdi şəxsi hesabda öz əksini tapmadığı, nəticədə vətəndaşın sosial təminat hüququnun pozulduğu müəyyən olunmuşdur. Hüquq pozuntusunun aradan qaldırılması üçün aidiyyəti quruma müraciət edildikdən sonra ərizəçi tərəfindən ödənilmiş sosial sığorta haqları barədə məlumatlar elektron informasiya sisteminə ötürülərək tələb təmin edilmişdir.

"Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, sığortaedən və sığortaolunan tərəfindən təqdim olunan məlumatların fərdi şəxsi hesablara vaxtında və dürüst daxil edilməsini, onların etibarlı saxlanmasını və mühafizəsini təmin etmək sığortaçının əsas vəzifələrindəndir.

**Ərizəçi U.** Ombudsmana müraciət edərək 17.02.1978-ci il tarixdə əmək fəaliyyətinə başladığını, 18.08.2021-ci il tarixdən etibarən əmək pensiyası aldığını, uzun illər (43 il) əmək fəaliyyəti ilə məşğul olduğu üçün ona əmək veteranı adının verilməsi məqsədilə sonuncu iş yeri olan Naxçıvan Şəhər İstilik Təsərrüfat İdarəsinə müvafiq sənədləri təqdim etdiyini, həmin sənədlərin İdarə tərəfindən Naxçıvan Şəhər İcra Hakimiyyətinə göndərildiyini, dəfələrlə aidiyyəti quruma müraciət etməsinə baxmayaraq heç bir nəticə olmadığını bildirmiş və ona əmək veteranı adının verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət qanunamüvafiq qaydada araşdırılmış, şikayətlə bağlı Naxçıvan Şəhər İcra Hakimiyyətinə müraciət olunduqdan sonra qanunvericiliyin tələblərinə uyğun olaraq ərizəçiyə əmək veteranı adı və veteran vəsiqəsi verilərək tələbi təmin olunmuşdur.

"Veteranlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən dövlət qarşısında xüsusi xidmətləri olan və ya fəxri adlara layiq görülmüş, yaxud ordenlərlə təltif edilmiş uzun illər ictimai əməklə məşğul olmuş və qüvvədə olan qanunvericiliyə müvafiq surətdə yaşa görə pensiya almaq hüququnu qazanmış şəxslər əmək veteranı sayılırlar.

***Sağlamlığın qorunması hüququ.*** Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə əsasən hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.

Əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlülüyünün artırılmasına, tibbi yardımla təminatına xidmət edir. Əsas məqsəd hər bir şəxsin bu sahədə hüquqlarının təmin olunması, sağlamlığın qorunması sahəsində profilaktik tədbirlərin həyata keçirilməsi və tibbi-sosial yardımın hamı üçün əlçatan olmasıdır.

Sağlamlıq fərdin həyat fəaliyyəti ilə birbaşa bağlı olduğuna görə ona olan münasibət və onunla bağlı məsələlərin əsası konstitusion hüquq səviyyəsində müəyyən edilmişdir.

Sağlamlığın qorunması hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə güzəştli dərman preparatları ilə təminatda mövcud problemlər, müalicə müəssisəsinə göndərişin verilməsindən imtina olunması, əlilliyin qiymətləndirilməsi ilə əlaqədar göndərişin rəsmiləşdirilməsi üçün tibb müəssisəsinə müraciətin nəticəsiz qalması və ya göndərişin müəyyən edilmiş tələblərə uyğun rəsmiləşdirilməməsi, tibbi

reabilitasiyanın, habelə icbari tibbi sığortanın imkanlarından yetərincə istifadə etmək üçün zəruri şəraitin yaradılmaması və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Sağlamlığın qorunması hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər üzrə araşdırmalar aparılmış, hüquqların pozulması halları müəyyən edilərək zəruri tədbirlər görülmüşdür.

**Ərizəçilər Ü və V.** Ombudsmana kollektiv müraciət edərək müharibə veteranları olduqlarını, şəkərli diabet xəstəliyindən əziyyət çəkdiklərini, şəkərsalıcı dərman preparatlarının, inyeksiya və özünənəzarət vasitələrinin normaya uyğun verilmədiyini, bu səbəbdən səhətlərində problemlər yarandığını, məsələ ilə bağlı aidiyyəti quruma müraciət etsələr də, nəticəsiz qaldığını bildirmiş və şəkərsalıcı dərman preparatlarının, inyeksiya və özünənəzarət vasitələrinin normaya uyğun verilməsinə köməklik göstərilməsini xahiş etmişlər.

Kollektiv müraciətin araşdırılması zamanı ərizəçilərə insulin şpris-qələmləri üçün ucluqlar və qanda şəkəri təyin etmək üçün vizual test-çubuqları verilərkən qanunvericilikdə nəzərdə tutulan normalara əməl olunmadığı, o cümlədən özünənəzarət vasitələrinin verilməsi üçün resept nüsxələrinin tərtib edilmədiyi müəyyən olunmuş, beləliklə sağlamlığın qorunması kimi konstitusion hüquq normasının pozuntusuna yol verilmişdir.

Şikayətlə bağlı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə ünvanlanmış müraciətdən sonra hüquq pozuntusu aradan qaldırılaraq ərizəçilərə şəkərsalıcı dərman preparatlarının, inyeksiya və özünənəzarət vasitələrinin normaya uyğun və resept əsasında verilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli, 87 nömrəli qərarı ilə təsdiq edilmiş "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı" adlı 1 nömrəli əlavədə şəkərli diabet tip 1 və şəkərli diabet tip 2 insulinə ehtiyacı olanlara insulinin illik 14400 vahid, birdəfəlik insulin şprisinin və ya insulin şpris-qələmləri üçün ucluqların gündə 2 ədəd hər 5 gündən bir olmaqla, illik 144 ədəd və qanda şəkəri təyin etmək üçün vizual test-çubuqlarının isə ayda 1 qutu (50 ədəd) verilməsi müəyyən olunmuşdur.

**Ərizəçi Y.** Ombudsmana müraciət edərək oğlunun hemofiliya xəstəsi olduğunu, 2024-cü ilin aprel ayınadək övladının müalicəsi üçün zəruri olan dərman preparatlarının Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən verildiyini, lakin aprel ayından etibarən həmin dərman preparatlarının verilmədiyini bildirmiş və övladının sağlamlıq vəziyyətini nəzərə alaraq müvafiq dərman preparatlarının verilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti araşdırılarkən oğlunun hemostazın başqa növ pozuntusundan (XIII faktor çatışmazlığı) əziyyət çəkdiyi və onun müalicəsi üçün lazım olan "Fibrogammin 250 IU/IU FXIII" dərman preparatının dövlət qeydiyyatı olmadığı və hemofiliya xəstələri üçün dərman preparatlarının siyahısında nəzərdə tutulmadığı məlum olmuş, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə qarşılıqlı əməkdaşlıqdan sonra dərman preparatı verilərək ərizəçiyə köməklik göstərilmişdir.

"Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.2-ci maddəsinə əsasən hemofiliya qanın laxtalanma sistemində olan VIII və (və ya) IX faktorların çatışmaması ilə xarakterizə olunan irsi qan xəstəliyidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 15 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı"na əsasən hemofiliyalı xəstələrin müalicəsi VII, VIII və IX laxtalanma faktor preparatları ilə dövlət hesabına təmin edilir.

Vətəndaşların, xüsusilə aztəminatlı şəxslərin dövlət hesabına müayinə və müalicə olunmasında köməklik göstərilməsi ilə bağlı müraciətləri üzrə Ombudsman tərəfindən aidiyyəti qurumlara müraciət edildikdən sonra zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi Z.** Ombudsmana müraciət edərək Şərur rayonunun Şəhriyar kəndində yaşayan qohumunun xəstəliyinə görə Naxçıvan Muxtar Respublika Mərkəzi Xəstəxanasında cərrahi əməliyyat olunması üçün Şərur Rayon Mərkəzi Xəstəxanasına icbari tibbi sığorta üzrə göndərişin verilməsi üçün müraciət etsə də, göndərişin verilmədiyini bildirmiş, icbari tibbi sığorta üzrə göndərişin verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən aidiyyəti quruma müraciət edildikdən sonra Naxçıvan Muxtar Respublika Mərkəzi Xəstəxanasında icbari tibbi sığorta hesabına ərizəçinin üzərində cərrahi əməliyyat aparılmışdır.

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 1-1-ci maddəsinə görə tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə sığortaolunanın tibbi xidmət və dərman yardımı almasına təminat verir. Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, sığorta hadisəsi zamanı icbari tibbi sığortanın maliyyə mənbələri hesabına və xidmətlər zərfi çərçivəsində sığorta olunanların tibbi yardım almasını təmin edir.

Ombudsman hesab edir ki, ərazidən asılı olmayaraq vətəndaşların tibbi xidmətlərə əlçatanlığı təmin olunmalı və istənilən vaxt həkimə müraciət etmək imkanına şərait yaradılmalıdır. Belə ki, müvafiq tibb müəssisəsində kadr çatışmazlığı və tibbi avadanlıqların olmaması vətəndaşların keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin edilməsinə mane olmaqla, sağlamlığın qorunması hüququnun pozulmasına gətirib çıxarır.

Bu baxımdan Ombudsman müvafiq ərazidə əhalinin sağlamlığının qorunması hüququnun etibarlı müdafiəsinə və əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasına şərait yaradılmasını, göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırıl-masını, eləcə də tibb müəssisələrinin zəruri avadanlıqlarla təmin edilməsini zəruri hesab edir.

***Sağlam ətraf mühitdə yaşamaq hüququ.*** Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsi hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnu təsbit edir. Bu hüququn təmin olunması insanlar üçün normal və təhlükəsiz həyat şəraitinin yaradılması, habelə digər hüquq və azadlıqların reallaşdırılmasında əsas şərtlərdən biri kimi çıxış edir.

**Ərizəçi A.** Ombudsmana müraciət edərək yaşadığı Çərçiboğan kəndindəki məscidin yanında ölmüş şəxslərin yuyulması üçün müvafiq binanın tikildiyini, binadakı

suyun yaxınlıqda yerləşən artezian qurğusu hesabına təmin edildiyini, həmin binada ölülər yuyularkən yaranan tullantı suyunun suvarma və içməli suya qarışdığını bildirmiş, həmin binadan axıdılan çirkab sularının suvarma və içməli suya qarışmasının qarşısının alınması ilə bağlı müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətin araşdırılması və zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyəti qurumlara müraciət olunduqdan sonra həmin binanın təyinatı dəyişdirilərək çirkab sularının axıdılmasının qarşısı alınmışdır.

**Ərizəçi B.** Ombudsmana müraciət edərək Culfa rayonunun, Yaycı kəndində küçələrdə və kənd mərkəzində məişət tullantıları üçün tutumların olmadığını, yalnız məktəbin ətrafında az sayda tutumun yerləşdirildiyini, məişət tullantılarının tutumlardan kənar yerlərə atılması səbəbindən kənddə ətraf mühitin çirkləndirildiyini, məsələ ilə bağlı Culfa Rayon İcra Hakimiyyətinə və Culfa Rayon Kommunal Müəssisələr Kombinatına müraciət etsə də, heç bir tədbirin görülmədiyini bildirmiş və kənd ərazisində tullantılar üçün tutumların sayının artırılmasına köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət araşdırılarkən kənd ərazisində tullantılar üçün tutumların qanunvericiliyin tələblərinə uyğun yerləşdirilmədiyi və sayının az olduğu müəyyən olunmuş, aidiyyəti quruma müraciət olunduqdan sonra tutumların sayı artırılaraq tələb təmin edilmişdir.

"Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən zərərsizləşdirmək məqsədilə məişət tullantıları tutumlara (urnalara) atılmalıdır. Bu tullantıların tutumlardan (urnalardan) kənar yerlərə atılması və ya basdırılması qadağandır. Şəhərlərdə və rayon inzibati ərazi vahidlərinin inzibati mərkəzlərində tutumlar (urnalar) arası məsafə 100 metrdən çox olmamalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləş-dirilməsi Qaydaları"nın 8-ci bəndinə əsasən bütün meydan və küçələrdə, bağlarda, parklarda, şəhər nəqliyyatı dayanacaqlarında, metro girişlərində və s. ərazilərdə aidiyyəti qurumlar tərəfindən, vağzallarda, aeroportlarda, dəniz limanlarında, bazarlarda və digər yerlərdə isə bu təşkilatların rəhbərliyi tərəfindən kifayət qədər tutumlar (urnalar) qoyulmalıdır. Əhali çox olan yerlərdə tutumlar (urnalar) arası məsafə 40 metrdən çox, əhali az olan yerlərdə isə bu məsafə 100 metrdən çox olmamalıdır. Şəhərlərdə və rayon inzibati ərazi vahidlərinin inzibati mərkəzlərində tutumlar (urnalar) arası məsafə 100 metrdən çox olmamalıdır. Tutumlar dolma həddindən asılı olmayaraq sistematik təmizlənməlidir.

Ekoloji tarazlığın qorunub saxlanması, ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan səmərəli istifadə olunması məqsədilə ətraf mühitin çirkləndirilməsinə qarşı mübarizə tədbirləri gücləndirilməli, neqativ nəticələrə səbəb ola biləcək halların qarşısının alınması üçün aidiyyəti dövlət qurumları tərəfindən qabaqlayıcı tədbirlər görülməli və nəzarət gücləndirilməlidir.

***Təhsil hüququ.*** Təhsil dövlətin siyasi-iqtisadi, sosial və mədəni inkişafının əsas elementlərindən biridir. Ölkəmizdə təhsil sistemi Azərbaycan Respublikasının

Konstitusiyasına, bu sahədə qəbul edilmiş müvafiq normativ-hüquqi aktlara, habelə respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən tənzimlənir.

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində qeyd olunur ki, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir və maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir.

Təhsil yalnız bir hüquq kimi deyil, eyni zamanda digər insan hüquqlarının tam və effektiv həyata keçirilməsi üçün də vasitə kimi görülür, hər bir insanın inkişafına və ləyaqətinin dərk olunmasına, insan hüquqlarına və əsas azadlıqlara hörmətin möhkəmləndirilməsinə, eyni zamanda hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmasına imkan yaradır.

Təhsil hüququnun təmin edilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər üzrə aparılmış araşdırmalar nəticəsində pozuntu halları aşkar edilmiş, problemlərin təhlili aparılmış və həlli istiqamətində zəruri addımlar atılmışdır.

**Ərizəçi C.** Ombudsmana müraciət edərək oğlunun Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin VI sinifində təhsil aldığını, bəzi sinif yoldaşları ilə oğlu arasında tez-tez mübahisə yarandığından onu başqa sinifə keçirmək üçün məktəbin direktoruna müraciət etdiyini, oğlunun sinifi dəyişdirilsə də, sinif rəhbərinin təkidi ilə əvvəlki sinifinə geri qaytarıldığını və oğlunun ayrı-seçkiliyə, psixi təsirə məruz qaldığını bildirmiş, oğlunun başqa sinifə keçirilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə müraciət edilmiş, qanunamüvafiq qaydada tədbirlər görüldükdən sonra ərizəçinin oğlu başqa sinifə keçirilmişdir.

**Ərizəçi Ç.** Ombudsmana müraciət edərək oğlunun nikahına xitam verildikdən sonra, nəvələrinin keçmiş gəlininin yanında yaşadığını, keçmiş gəlini yenidən nikaha daxil olduqdan sonra yaşayış yerini dəyişdiyi üçün nəvələri ilə heç bir əlaqəsinin olmadığını, nəvələrindən birinin ona zəng vuraraq anasının onu təhsil aldığı məktəbdən çıxarmaq istədiyi üçün evdən qaçdığını, ögey atası tərəfindən fiziki təsirə məruz qaldığını bildirərək onun anasından alınmasını tələb etdiyini, hazırda nəvəsinin onunla birgə yaşadığını, onun təhsildən yayınmaması üçün yaşayış yeri üzrə məktəbə yerləşdirmək istədiyini, lakin keçmiş gəlini razılıq vermədiyindən nəvəsinin təhsil hüququnun pozulduğunu bildirmiş, nəvəsinin yaşayış yeri üzrə məktəbə yerləşdirilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciətinə qanunamüvafiq qaydada baxılmış, aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıqdan sonra uşağın təhsildən yayındırılmasının qarşısı alınıraq uşaq yaşayış yeri üzrə ümumtəhsil müəssisəsinə yerləşdirilmişdir.

Hər hansı səbəbdən təhsildən yayınan uşaqlara münasibətdə aidiyyəti qurumlar tərəfindən vaxtında profilaktik tədbirlərin görülməməsi, konstitusion hüquqların pozulmasına gətirib çıxara bilər.

Qeyd edilən halların aradan qaldırılması üçün aidiyyəti qurumlar tərəfindən monitorinqlər keçirilməklə təhsildən yayınan şagirdlərin müəyyən edilməsi və zəruri tərbiyəvi-profilaktik işin aparılması məqsədəmüvafiqdir.

***Mülkiyyət hüququ.*** Mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsində təsbit edilmişdir ki, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

Mülkiyyət hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə, əsas etibarilə, mülkiyyətdə olan əmlakın (evin, tikilinin) müvafiq məhkəmə qərarı olmadan sökülməsi, xüsusi mülkiyyətdə olan evin dövlət ehtiyacları üçün geri alınması və əvəzinin ödənilməməsi və ya əvəzində uyğun kompensasiyanın verilməməsi və digər bu kimi hallar öz əksini tapmışdır.

**Ərizəçi D.** Ombudsmana müraciət edərək sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq məqsədilə Qıvraq qəsəbəsində yerləşən və xüsusi mülkiyyətində olan torpaq sahəsində qeyri-yaşayış (çay evi, mağaza) obyektinin tikintisinin aparılması üçün icazənin verildiyini, həmin torpaq sahəsində ilkin zəruri təmir-tikinti işlərinin yerinə yetirildiyini, lakin torpaq sahəsi hərbi hissənin ərazisinə yaxın yerləşdiyindən tikinti işlərinin dayandırıldığını, başqa ərazidə torpaq sahəsinin verilməsi ilə bağlı Kəngərli Rayon İcra Hakimiyyəti tərəfindən edilən təklifi qəbul etdiyini, lakin torpaq sahəsinin verilmədiyini bildirmiş, mülkiyyət hüququnun pozulmasının qarşısının alınmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Şikayət qanunamüvafiq qaydada araşdırılmış, aidiyyəti quruma müraciət olunduqdan sonra hüquq pozuntusu aradan qaldırılaraq vətəndaşa torpaq sahəsi verilmişdir.

**Ərizəçi E.** Ombudsmana müraciət edərək atasının "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ilə bağladığı lizinq müqavilələrinə əsasən 1 ədəd kombaynın və 1 ədəd qarğıdalı biçən xederin 10 il müddətinə lizinqə verildiyini, ödəniş qrafikinə uyğun olaraq müəyyən edilmiş illik məbləğin vaxtında ödənildiyini, hər il əkin-biçin mövsümü başa çatdıqdan sonra kombaynın və qarğıdalı biçən xederin saz vəziyyətdə geri qaytarıldığını, 2023-cü il üzrə qarğıdalı biçən xederin dəyəri üçün müəyyən edilmiş illik məbləğ ödənilmədiyindən barələrində məhkəmədə iddia qaldırıldığını, hər bir kənd təsərrüfatı texnikasının lizinqə verilməsi ilə bağlı ayrılıqda müqavilələr bağlanmasına və kombayn üçün ödənişlərin vaxtında ödənilməsinə baxmayaraq 2024-cü ildə kombayndan istifadəyə icazə verilmədiyini bildirmiş, əkin-biçin mövsümünün başlanmasını nəzərə alaraq kombayndan istifadəyə icazə verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət qanunamüvafiq olaraq araşdırılmış, müxtəlif vaxtlarda bağlanan lizinq müqavilələrinin hər birinin ayrı obyekti olduğu, eləcə də müqavilələrin bəndlərində onların aqreqatlaşdırılması ilə bağlı heç bir müddəanın olmadığı, kombaynın və qarğıdalı

biçən xederin saz və komplekt vəziyyətdə ərizəçinin atasına təhvil verildiyi, lakin müqavilədə nəzərdə tutulmadığı halda lizinq verən "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyəti tərəfindən əkin-biçin mövsümü başa çatdıqdan sonra texnikaların geri alındığı, lizinq alanın lizinq müqavilələri üzrə hüquqlarının pozulduğu məlum olmuş, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinə müraciət olunduqdan sonra pozulmuş hüquqlar bərpa olunaraq kombayndan istifadəyə qoyulmuş məhdudiyyət aradan qaldırılmışdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747.1-ci maddəsinə əsasən lizinq müqaviləsinə görə lizinq verən müəyyən əşyanı müqavilə ilə şərtləşdirilmiş müəyyən haqla, müəyyən müddətə və digər şərtlərlə (lizinq alana əmlakı satın almaq hüququnun verilməsi də daxil olmaqla) lizinq alanın istifadəsinə verməyə borcludur.

Bu Məcəllənin 748-1-ci maddəsinə əsasən lizinq verən lizinq obyekti olan əmlakı lizinq alana lizinq müqaviləsinin şərtlərinə və həmin əmlakın təyinatına uyğun halda (vəziyyətdə) təqdim etməlidir.

Mülkiyyət hüququnun pozulması ilə əlaqədar 2024-cü il ərzində Ombudsmana daxil olmuş şikayətlərdə hüquq pozuntusu baş verdiyi vaxtdan 1 ildən artıq müddət keçdiyindən, mülki işlərin məhkəmənin səlahiyyətinə aid olması nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa uyğun olaraq həmin müraciətlərə baxılmaqdan imtina edilmiş və vətəndaşlara vurulmuş zərərin ödənilməsi ilə bağlı aidiyyəti üzrə müvafiq məhkəməyə müraciət etmək hüququ izah olunmuşdur.

### 1.3 Əhali qruplarının hüquqlarının müdafiəsi

Hesabat dövründə muxtar respublikada ölkə Konstitusiyasında təsbit edilən fundamental hüquq və azadlıqlar, həmçinin əhalinin müxtəlif sosial qruplarının hüquqlarının daha səmərəli təmin olunması və müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilmiş, əhalinin müxtəlif sosial qruplarının - qadınların, uşaqların, miqrantların, ahıl vətəndaşların, müharibə veteranlarının, şəhid ailələrinin və məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, hüquq bərabərliyinin davamlı təmin edilməsi daim diqqət mərkəzində saxlanılmışdır.

Bu baxımdan, 5 oktyabr 2023-cü il tarixdə "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa edilmiş müvafiq dəyişikliklərə əsasən Ombudsmana "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi səlahiyyətinin verilməsi mövcud fəaliyyətin müasir çağırışlara uyğunlaşdırılması, uşaqların və əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsində səmərəliliyin artırılması, mütərəqqi beynəlxalq təcrübənin ölkəmizdə, o cümlədən muxtar respublikamızda da tətbiq edilməsi baxımından əhəmiyyətli addımdır.

***"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın muxtar respublikada həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi.***

“Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 1.3-1-ci və 13-3-cü maddələrinə əsasən Müvəkkilin müstəqil monitorinq mexanizm funksiyalarının icrası istiqamətində Ombudsman və onun Monitorinq qrupları tərəfindən 2024-cü il ərzində sosial xidmət, təhsil və tibb müəsissələrində **150 monitorinq** həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrdə 112, Tibb Müəssisələrinin İdarəetmə Birliyi publik hüquqi şəxsin tabeliyində olan müəssisələrdə 16, Mədəniyyət Nazirliyinin tabeliyində olan müəssisələrdə 9, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan müəssisələrdə 6, Gənclər və İdman Nazirliyinin tabeliyində olan müəssisələrdə 3, Naxçıvan Dövlət Universitetinin tabeliyində olan müəssisələrdə 3, Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə 1 monitorinq aparılmışdır.

Monitorinqlər zamanı hüquq pozuntusu faktlarının aşkar edilməsi və qarşısının alınması məqsədilə texniki vasitələrdən istifadə edilməklə foto, audio və video qeydiyyatları aparılmış, monitorinqlərin gedişi və nəticələri protokollaşdırılmış, zəruri tədbirlər görülmüşdür.

Monitorinqlər zamanı müəssisələrdə hüquqların təmini vəziyyəti yoxlanılmış, bu məsələlərə diqqətin artırılması və qanunvericiliyin tələblərinə daha ciddi əməl olunması məqsədilə müəssisələrdə maarifləndirmə işi həyata keçirilmiş və yuxarı dövlət orqanlarına təklif və tövsiyələr verilmişdir.

***Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi.*** Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi və təşviqi, onların cəmiyyətə inteqrasiya imkanlarının artırılması istiqamətində Ombudsman tərəfindən həyata keçirilən tədbirlər davam etdirilmişdir.

Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə əlilliyin qiymətləndirilməsi, əlilliyə görə müavinətin təyin edilməsi, müayinə və müalicənin aparılmasında köməyin göstərilməsi, reabilitasiya vasitələrinin verilməsi, dərman preparatları və köməkçi vasitələrlə təminat məsələləri öz əksini tapmışdır. Bu qəbildən olan müraciətlər üzrə səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş və problemlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi Ə.** Ombudsmana müraciət edərək arvadının orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxs olduğunu, dövlət tərəfindən ona verilən təkərli oturacağın yararsız vəziyyətə düşdüyünü, həmin oturacağın yenisi ilə əvəz olunması üçün dəfələrlə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etsə də, nəticəsiz qaldığını bildirmiş və arvadının təkərli oturacaqla təmin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə verilmiş sorğuya cavab olaraq ərizəçinin arvadının mexaniki təkərli oturacaqla təmin edildiyi, onun yeni mexaniki təkərli oturacaqla təmin

olunması üçün qeydiyyatda olduğu və növbəlilik əsasında vətəndaşın mexaniki təkərli oturacaqla təmin olunacağı bildirilsə də, araşdırma zamanı məlum olmuşdur ki, qanunvericilikdə növbəliliyə uyğun olaraq təmin edilmə mexaniki deyil, mühərrikli təkərli oturacaqların verilməsi üçün nəzərdə tutulmuşdur.

Pozulmuş sosial təminat hüququnun bərpa olunması məqsədilə aidiyyəti quruma müraciət olunduqdan sonra əlilliyi müəyyən edilmiş şəxs yeni mexaniki təkərli oturacaqla təmin olunaraq hüquq pozuntusu aradan qaldırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 2020-ci il tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nın 3.16-cı bəndində qeyd olunur ki, şəxsə verilmiş mexaniki təkərli oturacaqlar istifadə müddəti başa çatmamışdan əvvəl yararsız vəziyyətə düşdükdə, şəxsin və ya onun qanuni nümayəndəsinin müraciəti əsasında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tabeliyindəki Protez-Ortopedik Bərpa Mərkəzində həmin reabilitasiya vasitələrinə 3 (üç) iş günü müddətində texniki baxış keçirilir, təmiri mümkün olmadıqda Mərkəzin tibbi-texniki komissiyası tərəfindən protokol tərtib edilməklə Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.

Bu Qaydanın 3.2-ci bəndində isə şəxsin mühərrikli təkərli oturacaqla Fərdi Reabilitasiya Proqramının tərtib edilmə ardıcıllığına görə formalaşan növbəliliyə uyğun olaraq təmin edildiyi qeyd olunmuşdur.

**Ərizəçi F.** Ombudsmana müraciət edərək parkinson xəstəliyindən əziyyət çəkdiyini, dopamin çatışmazlığı səbəbindən xəstəliyinin daha da ağırlaşdığını, orqanizmində dopamin səviyyəsinin artırılması üçün dərman preperatları ilə təmin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir

Ərizəçinin müraciətində qeyd etdiyi orqanizmində dopamin səviyyəsinin artırılması üçün dərman preperatları ilə təmin olunması tələbi ilə bağlı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə göndərilmiş sorğuya cavab olaraq vətəndaşın tələb etdiyi dərman preparatlarının "Naxçıvan Muxtar Respublikasında əlilliyi olan şəxslərin tibbi xidmət və sanatoriya - kurort müalicəsi ilə təmin olunması Qaydası" haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 19 yanvar 2022-ci il tarixli 14 nömrəli Qərarı ilə təsdiq edilmiş əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısına daxil olmadığı bildirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"nın 2.7-ci bəndinə əsasən ambulator müalicə ilə əlaqədar verilən dərman preparatlarının dəyəri əlilliyi olan şəxslərin yaşadığı ərazi üzrə dövlət tibb müəssisələ-rinin xərclərində bu məqsədlə nəzərdə tutulmuş vəsait hesabına ödənilir.

Bu Qaydaya "Əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısı" adlı 2 nömrəli əlavəyə əsasən parkinsonizm əleyhinə ambulator müalicə alan şəxslərə "Levodopa + Karbidopa, "Levodopa + Karbidopa + Entakapo, Triheksifenidil" adlı dərman preparatları verilir.

Məlumat üçün bildirilir ki, Naxçıvan Muxtar Respublikasının eyni adlı normativ-hüquqi aktlarında da əlilliyi olan şəxslərə dərman preparatlarının verilməsi ilə bağlı analoji müddəalar nəzərdə tutulmuşdur.

Qeyd olunanları nəzərə alaraq parkinsonizm əleyhinə ambulator müalicə alan ərizəçinin müalicəsi üçün aidiyyəti quruma müraciət olunduqdan sonra müvafiq tibb müəssisəsinin həkimləri tərəfindən evində müayinəsi aparılaraq qanunamüvafiq qaydada dərman preparatları ilə təmin olunmuşdur.

**Ərizəçi G.** Ombudsmana müraciət edərək 2 övladının olduğunu, bir övladının serebral iflic xəstəliyindən əziyyət çəkdiyini, hərbi xidmət vəzifələrini yerinə yetirərkən aldığı xəsarətlə əlaqədar istefaya buraxıldığını, əlilliyi müəyyən olunmuş şəxs kimi yüngül "oturaq" işlərdə işləyə biləcəyini qeyd etmiş, öhdəsində əlilliyi olan övladının olması və sağlamlıq vəziyyəti nəzərə alınaraq münasib işlə təmin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən müraciət ilə əlaqədar aidiyyəti dövlət orqanı ilə qarşılıqlı əməkdaşlıqdan sonra Naxçıvan Muxtar Republikası Kənd Təsərrüfatı Nazirliyində sürücü vəzifəsinə təyin olunmuşdur.

***Uşaq hüquqlarının müdafiəsi.*** Uşaqların hüquqlarının müdafiəsi və təbliği Ombudsmanın daim diqqət mərkəzində olmuşdur.

Uşaq hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə, əsasən alimentin ödənilməsi və ünsiyyət hüququnun təmini ilə bağlı məhkəmə qərarlarının icrası, sağlamlıq, sosial təminat və təhsil hüququ, müəssisəyə yerləşdirmə və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Uşaq hüquqlarının etibarlı və səmərəli müdafiəsi, xüsusilə sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının effektiv təmini məqsədilə araşdırmalar aparılmış, müvafiq dövlət qurumlarına müraciətlər edilmiş, problemlərin həlli istiqamətində zəruri addımlar atılmış, müsbət nəticələr əldə edilmişdir.

**Ərizəçi Ğ.** Ombudsmana müraciət edərək oğlunun Heydər Əliyev adına Hərbi Liseyin kursantı olduğunu, öz razılığı ilə oğlunun Liseyin şəxsi heyətinin sırasından çıxarıldığını, oğlunun təhsilini davam etdirməsi üçün müvafiq sənədləri Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə təqdim etdiyini, lakin Nazirlik tərəfindən heç bir hüquqi əsas olmadan oğlunun təhsil hüququnun təmin edilmədiyini, Nazirliyə dəfələrlə şifahi formada müraciət etməsinə baxmayaraq heç bir tədbir görülmədiyini, Təhsil Nazirliyinə ünvanladığı yazılı müraciətinə cavab verilmədiyini bildirmiş və oğlunun təhsil hüququnun təmin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı ərizəçinin övladının yerdəyişməsinə köməklik göstərilməsi üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə müraciət olunduğu, Lisey tərəfindən təqdim olunmuş şəxsi işdə yarımillik qiymətlər yazılmadığı üçün yerdəyişmə ilə bağlı çətinlik yarandığı məlum olmuş, aidiyyəti quruma müraciət olunduqdan sonra ərizəçinin övladının Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbdə təhsilini davam etdirməsi təmin olunmuş və bununla əlaqədar Ümumtəhsil Müəssisələrinin İnformasiya Sistemində müvafiq qeydiyyat aparılmışdır.

**Ərizəçi H.** Ombudsmana müraciət edərək məhkəmə qətnaməsi ilə azyaşlı oğlunun onun yanında qalmasının qət olunduğunu, cavabdehin verdiyi apellyasiya və kassasiya şikayətləri təmin olunmasa da, uşağı ona verməkdən imtina etdiyini, övladını görə bilmədiyini qeyd etmiş, məhkəmə qətnaməsinin icra olunmasını və övladının cavabdehdən alınaraq ona verilməsini xahiş etmişdir.

Ombudsmanın və aidiyyəti dövlət orqanlarının əməkdaşlarının iştirakı ilə şikayət yerində araşdırılmış, məhkəmə qətnaməsinə uyğun olaraq uşaq cavabdehdən alınaraq tələbkara verilmiş, beləliklə ərizəçinin tələbi təmin edilmişdir.

**Ərizəçi X.** Ombudsmana müraciət edərək azyaşlı nəvəsinin orqanizm funksiyalarının 81-100% pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxs olduğunu, ona qulluq edən şəxs oğlu müəyyən edildiyindən bütün ödənişlərin (sosial müavinət və Azərbaycan Respublikası Prezidentinin təqaüdü) həyata keçirilməsi üçün plastik kartın oğlunun adına verildiyini, xarici dövlətdə yaşayan oğlu tərəfindən bütün vəsaitin mənimsənildiyini, bu səbəbdən nəvəsinin müalicə xərclərini və digər maddi ehtiyaclarını ödəyə bilmədiyini, həmin plastik kartın gəlininin adına verilməsi üçün dəfələrlə aidiyyəti dövlət orqanlarına müraciət etsə də, heç bir nəticənin olmadığını bildirmiş, oğlu tərəfindən ödənişlərin mənimsənilməsinin qarşısının alınmasına və plastik kartın nəvəsinə qulluq edən gəlininin adına verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti ilə əlaqədar müvafiq araşdırma aparılmış, aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq edilərək ödənişlərin oğlu tərəfindən mənimsənilməsinin qarşısı alınmış, nəvəsinə qulluq edən şəxs kimi gəlini təyin olunaraq plastik kart onun adına verilmişdir.

**Ərizəçi I.** Ombudsmana müraciət edərək 18 yaşınadək əlilliyi müəyyən edilmiş nəvəsinin xəstəliyi ilə əlaqədar Şərur Rayon Uşaq Xəstəxanasında öz vəsaitləri hesabına loqopedik və psixoloji yardım aldığını, ailəsinin maddi vəziyyəti pis olduğu üçün bu yardımın alınmasının dayandırıldığını, Şərur Rayon Uşaq Xəstəxanasının psixoloqunun bir neçə ay bundan əvvəl zəng edərək nəvəsinə həftədə 2 dəfə ödənişsiz yardımın göstərilməsinin mümkün olduğunu və müvafiq sənədləri təqdim etdiyi təqdirdə köməklik göstəriləcəyinin bildirildiyini, tələb olunan sənədlərin təqdim edilməsinə baxmayaraq nəvəsinin bugünədək çağırılmadığını qeyd etmiş və nəvəsinin səhhətinin günü-gündən pisləşdiyini nəzərə alaraq onun ödənişsiz loqopedik və psixoloji yardım almasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə əlaqədar aidiyyəti quruma ünvanlanmış müraciətdən sonra ərizəçinin nəvəsinə həftədə iki gün loqopedik və psixoloji yardım göstərilməyə başlanmışdır.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin olunması və onların sosial statusunun bərpası xüsusi diqqətdə saxlanılan məsələlər sırasındadır. Belə ki, hesabat dövründə muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası, məşğulluq imkanlarının və peşə hazırlığının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, onlara göstərilən sosial xidmət, inklüziv təhsilin keyfiyyətinin daha da yaxşılaşdırılması Ombudsman tərəfindən davamlı monitorinq olunmuş, bu kateqoriyaya aid uşaqların sosial müdafiəsi və cəmiyyətə fəal inteqrasiyası diqqət mərkəzində saxlanılmışdır.

***Şəhid ailələri və müharibə veteranlarının hüquqlarının müdafiəsi.*** Ölkəmizdə həyata keçirilən sosial siyasətin başlıca istiqamətlərindən birini Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər, müharibə veteranları və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması təşkil edir. Əhalinin bu həssas qrupuna aid olan vətəndaşların məşğulluq, sosial təminat, səhiyyə və təhsil kimi sahələrdə hüquqlarının səmərəli təmini məqsədilə zəruri tədbirlər həyata keçirilir.

Muxtar respublikada müharibə veteranlarına və şəhid ailələrinə Ombudsman tərəfindən daim xüsusi həssaslıqla yanaşılmış, aparatın əməkdaşları tərəfindən bu kateqoriyadan olan şəxslərin ailələrinə mütəmadi ziyarətlər təşkil edilmiş, onların problemləri ilə yerində tanış olunmuş, həlli istiqamətində zəruri addımlar atılmışdır.

Ombudsman və onun əməkdaşları müharibə iştirakçıları və şəhid ailələrinin iqtisadi, sosial və mədəni baxımdan dəstəklənməsi, bu sahədə ictimai həssaslığın daha da gücləndirilməsi üçün bu şəxslərlə daim görüşlər keçirərək onların problemləri ilə yaxından maraqlanmışlar.

Ombudsmanın ünvanına şəhid ailələrindən, müharibə veteranlarından və müharibə ilə bağlı əlilliyi olan şəxslərdən daxil olmuş müraciətlərə xüsusi həssaslıqla yanaşılmış, müvafiq araşdırmalar aparılmış, hüquqlarının səmərəli təmin edilməsi ilə bağlı zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi şəhid atası İ.** Oğlunun Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak etdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra medal və ordenlərlə təltif edildiyini, lakin bugünədək onun adının heç bir küçəyə, məktəbə, hətta mədəni-maarif ocaqlarına verilmədiyini, adının əbədiləşdirilməsi üçün müvafiq dövlət orqanlarına müraciət etsə də, nəticəsiz qaldığını bildirmiş və şəhid oğlunun adının əbədiləşdirilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən şəhid adının əbədiləşdirilməsinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi istiqamətində Kəngərli Rayon İcra Hakimiyyətinə edilmiş müraciətə cavab olaraq bu istiqamətdə zəruri tədbirlərin görüldüyü bildirilmişdir.

**Ərizəçi J.** Ombudsmana müraciət edərək Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş bir qrup şəxsin müalicə olunması üçün lazım olan dərman preparatları ilə təmin olunmadıqlarını, maddi vəziyyətləri ilə əlaqədar öz vəsaitləri hesabına bu dərmanları ala bilmədiklərini, bu səbəbdən səhhətlərində ciddi problemlər yarandığını, məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinə müraciət olunduğunu, lakin həmin dərman preparatlarının alınmasının tender sorğusu metodu ilə mümkün olacağı əsas gətirilərək onlara heç bir köməklik göstərilmədiyini bildirmiş və dərman preparatlarının verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə verilmiş sorğuya cavab olaraq tibb müəssisələri üçün dərman preparatlarının satın alınması üzrə tender proseduru yekunlaşmadığından dərman preparatlarının

verilməsində çətinliklərin yarandığı bildirilmiş, verilmiş tövsiyələrdən sonra həmin şəxslər təyinata uyğun dərman preparatları ilə təmin edilmişlər.

Bununla yanaşı ərizəçinin müraciətində qeyd etdiyi digər bir məsələ isə bu kateqoriyadan olan şəxslərə reabilitasiya vasitələrinin verilməməsi olmuşdur. Belə ki ərizəçi Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş bir qrup şəxsin protez-ortopediya məmulatları və onların ehtiyat hissələri ilə təmin olunmadıqlarını, reabilitasiya vasitələrinin qiyməti baha olduğundan və maddi vəziyyətləri yaxşı olmadığından onları öz vəsaitləri hesabına ala bilmədiklərini, məsələ ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəfələrlə müraciət etsələr də, heç bir nəticənin olmadığını bildirmiş və reabilitasiya vasitələrinin verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə verilmiş sorğuya cavab olaraq həmin şəxslərin qeydiyyata alındığı və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2021-ci il tarixli, 15 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"na uyğun olaraq reabilitasiya vasitələri ilə təmin olunacaqları bildirilmişdir. Lakin müraciətdən 6 aydan çox müddət keçməsinə baxmayaraq adları qeyd olunan şəxslər protez-ortopediya məmulatları və onların ehtiyat hissələri ilə təmin edilməmişlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 2020-ci il tarixli, 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"na Əlavədə əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin təminat müddətinin ən yuxarı həddi 6 ay və hazırlanma müddətinin isə ən yuxarı həddi 20 iş günü müəyyən olunmuşdur.

**Ərizəçi K.** Ombudsmana müraciət edərək müharibə veteranı olduğunu, əkin sahəsinin suvarma suyu ilə təmin edilməsində çətinliklər yaşadığını, Məzrə kənd İnzibati ərazi dairəsi üzrə nümayəndə tərəfindən müxtəlif yollarla maneələr yaradıldığını, ona su verilmədiyini, nəticədə əkin sahəsinin quruduğunu, əkin sahəsinin suvarma suyu ilə təmin edilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti ilə əlaqədar Babək Rayon İcra Hakimiyyətinə müraciət olunmuş, hüquq pozuntusu aradan qaldırılaraq əkin sahəsi suvarma suyu ilə təmin olunmuşdur.

Qeyd edilməlidir ki, ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində şəhid ailələri, müharibə veteranları və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin hüquqlarının etibarlı müdafiəsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi davamlı olaraq genişləndirilməkdədir.

***Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi:*** Ombudsman həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının təmini, o cümlədən müraciətlərin araşdırılması və həbs yerlərinə başçəkmələrin keçirilməsi üzrə fəaliyyətini hesabat dövründə davam etdirmişdir.

Həbs yerlərinə və cəzaçəkmə müəssisələrinə keçirilmiş başçəkmələr zamanı bu müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının təmini vəziyyəti yerində yoxlanılmış, qəbul edilmiş şəxslərin qaldırdıqları məsələlər üzrə hüquqları izah edilmiş, Ombudsmana ünvanlanmış müraciətləri qəbul olunmuşdur. Müəssisə daxilində həlli mümkün olan məsələlər, o cümlədən görüş, telefon danışığı və tibbi yardımla bağlı müraciətləri yerində təmin edilmişdir.

**Ərizəçi Q.** Ombudsmana müraciət edərək Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin müvafiq rejmində cəzaçəkən oğlunun səhhətində problemlər olduğunu və onunla danışa bilmədiyini qeyd etmiş, oğlunun cəza çəkdiyi müəssisəsəyə başçəkmə həyata keçirilərək onun vəziyyəti barəsində məlumatın verilməsini və telefon əlaqəsinin yaradılmasına köməklik göstərilməsini xahiş etmişdir.

Məsələ ilə əlaqədar Ombudsmanın Preventiv qrupu tərəfindən müəssisəsəyə başçəkmə həyata keçirilmiş, ərizəçinin məhkum oğlu ilə fərdi və konfidensial söhbət aparılmış, müəssisə rəhbərinə müraciət olunduqdan sonra məhkumun ailə üzvləri ilə telefonla danışmaq hüququ təmin olunmuşdur.

**Ərizəçi L.** Başçəkmə zamanı Preventiv qrupa müraciət edərək MSY-yə gətirildikdən sonra əlaqə nömrəsi bilmədiyi üçün ailə üzvlərinə tutulması ilə bağlı məlumat verə bilmədiyini qeyd etmiş, ailə üzvləri ilə telefon vasitəsilə əlaqəsinin yaradılmasına köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı görülmüş tədbirlər nəticəsində saxlanılan şəxsin atası ilə telefonla danışmaq hüququ təmin edilmişdir.

**Ərizəçi M.** Ombudsmana müraciət edərək ərinin azadlıqdan məhrum edildiyini, onun əlilliyə görə sosial müavinət aldığını, lakin məhkum olunduqdan sonra əlilliyə görə verilən müavinətin dayandırıldığını bildirmiş və ərinin əlilliyinin yenidən qiymətləndirilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciətin araşdırılması zamanı aidiyyəti dövlət qurumlarına sorğular verilmiş və ərizəçinin ərinə beş il müddətinə orqanizm funksiyalarının 61-80 faizədək pozulmasına görə əlillik təyin olunduğu, əlillik müddəti bitdikdən sonrakı dövrdə əlilliyinin yenidən qiymətləndirilməsi üçün tibb müəsissəsinə müraciət etmədiyi məlum olmuşdur.

Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin müvafiq rejimində cəzaçəkən məhkumun əlilliyinin yenidən qiymətləndirilməsi üçün zəruri tədbirlərin görülməsi məqsədilə Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə müraciət olunmuş, məsələnin qanunamüvafiq həlli istiqamətində zəruri tədbirlər davam etdirilmişdir.

**Ərizəçi N.** Ombudsmana müraciət edərək azadlıqdan məhrumetmə cəzasına məhkum edildiyini, 10 və 14 yaşlı iki övladının olduğunu, anasının əmək pensiyası aldığını, arvadının işlədiyini, aztəminatlı ailəsinə ünvanlı dövlət sosial yardımının verilməsi üçün anasının dəfələrlə aidiyyəti quruma müraciət etməsinə baxmayaraq nəticəsiz qaldığını bildirmiş, ailəsinin maddi vəziyyəti və özünün məhkumluğu nəzərə alınaraq, sosial yardımın təyin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Şikayətlə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edildikdən sonra ailəyə 330.48 manat məbləğində sosial yardım təyin edilərək ərizəçinin tələbi təmin edilmişdir.

Qeyd etmək lazımdır ki, 2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 5 nəfər məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 2 nəfər məhkumun cəzaçəkmə müəssisəsinin növü dəyişdirilmişdir. Əfv məsələsi ilə bağlı icraata daxil olmuş müraciətlə əlaqədar Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təklif göndərilmiş və Azərbaycan Respublikası Prezidentinin 25 may 2024-cü il tarixli Sərəncamı ilə 2 nəfər məhkum barəsində əfvetmə tətbiq olunmuşdur. Ümumilikdə, 2024-cü il ərzində cəzaçəkmə müəssisələrində cəza çəkən 9 məhkum barəsində humanist tədbirlər tətbiq edilmişdir.

Muxtar respublikada azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, əmək hüquqlarının təmin edilməsi, cəmiyyətə adaptasiyası və müxtəlif peşə vərdişlərinə yiyələnməsi daim diqqətdə saxlanılmışdır. Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin nəzdindəki yaradıcılıq və istehsalat sahələrində məhkumlar müxtəlif peşələr üzrə kurslara cəlb edilmiş, onların əl işləri müxtəlif sərgilərdə nümayiş etdirilmiş, azadlığa buraxıldıqdan sonra sosial adaptasiyası və özünüməşğulluğun təmin edilməsinə geniş imkanlar yaradılmışdır. 2024-cü il ərzində ümumilikdə 105 cəza çəkməkdən azad edilmiş şəxs barəsində sosial adaptasiya tədbirləri tətbiq edilmişdir ki, bunlardan 104 şəxsə birdəfəlik pul müavinəti verilmiş, 1 şəxs isə özünüməşğulluq proqramına cəlb olunmuşdur.

***Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi.*** Gender bərabərliyinin təbliği və təmin olunması, habelə qadın hüquqlarının müdafiəsi məsələləri Ombudsmanın diqqət mərkəzində olmuş, qadınların hüquqlarının müdafiəsinə fərdi yanaşılmış, bu istiqamətdə hüquq pozuntularının qarşısının alınmasında səmərəli fəaliyyət təşkil olunmuşdur.

2024-cü il ərzində Ombudsmanın icraatına daxil olan 241 müraciətin 77-si (56 şikayət, 21 ərizə olmaqla), yəni 32%-i sosial kateqoriyasına görə qadınlar tərəfindən edilmişdir.

Bu sahədə Ombudsmanın ünvanına daxil olan müraciətlərdə məhkəmə qərarlarının icra olunmaması, əmək hüququnun pozulması, məşğulluq, pensiya, əlilliyin təyin edilməsi, tibbi müayinə və müalicə məsələləri, məişət zorakılığı və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Qadın hüquqları ilə bağlı Ombudsmana ünvanlanan müraciətlərə xüsusi həssaslıqla yanaşılmış, şikayətlərdə öz əksini tapmış problemlərin həlli məqsədilə səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş, hüquq pozuntularının və çətinliklərin aradan qaldırılması istiqamətində tədbirlər görülmüşdür.

**Ərizəçi O.** Ombudsmana müraciət edərək rəsmi nikahdan üç yetkinlik yaşına çatmayan uşağının olduğunu, mütəmadi olaraq ailə münaqişəsi zəminində əri tərəfindən zorakılığa məruz qaldığını, döyülərək təhqir olunduğunu, bu səbəbdən yaşayış evini tərk edərək uşaqları ilə birlikdə valideynlərinin yanına qayıtdığını, ərinin ata evinə gələrək

qızına və ona xəsarət yetirdiyini bildirmiş və ona qarşı törədilmiş zorakılığın qarşısının alınmasına, o cümlədən zərər çəkmiş şəxs kimi mühafizə orderinin verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət araşdırılarkən məişət zorakılığı faktının mövcudluğu aşkar olunmuş, müvafiq təhlükəsizlik tədbirlərinin görülməsi üçün Babək Rayon İcra Hakimiyyətinə müraciət olunduqdan sonra məişət zorakılığını törətmiş şəxsə bu zorakılığın təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilmiş və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi təmin edilmişdir.

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci və 11.1-ci maddələrinə əsasən məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, həmin şikayətə yerli icra hakimiyyəti orqanı tərəfindən baxılır və məişət zorakılığı törətmiş şəxsin hərəkətləri nəticəsində zərər çəkmiş şəxsin hüquqları və qanuni mənafeləri pozulduqda, məişət zorakılığı törətmiş şəxsə məişət zorakılığının təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilir və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderi verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 46 nömrəli qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"nın 3-cü bəndinə əsasən məişət zorakılığı ilə bağlı şikayətə 5 (beş) gün müddətində baxılır və müvafiq qərar qəbul edilir. Həmin müddətdə Qanunun 8-ci maddəsinə uyğun olaraq ilkin araşdırma aparılmalı, məişət zorakılığı faktının mövcudluğu aşkar edildikdə, zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görülməli və məişət zorakılığı halının aradan qaldırılması ilə bağlı gələcək fəaliyyət müəyyən edilməlidir.

Yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərərçəkmiş şəxslərin, xüsusən risk qrupuna daxil olan qadınların sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması insan hüquqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan Ombudsman zorakılığın bütün formalarının yolverilməzliyinin, gender bərabərliyinin təmin olunmasının, məişət zorakılığının qarşısının alınmasının və zərərçəkmiş şəxslərin hüquqlarının müdafiəsinin vacibliyini vurğulayaraq, muxtar respublikada məişət zorakılığı ilə mübarizə sahəsində aidiyyəti dövlət qurumlarına effektiv tədbirlərin həyata keçirilməsini, mühafizə orderlərinin verilməsini, məişət zorakılığı qurbanlarına daha çevik dəstəyin göstərilməsini, baş vermiş zorakılıq halları ilə əlaqədar onların vaxtında və hərtərəfli yardımla təmin edilməsini təklif edir.

**Ərizəçi Ö.** Ombudsmana müraciət edərək beş uşaqlı ana kimi 17 il əmək stajının olduğunu, övladlarından birinə orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlillik müəyyən edildiyini, 62 yaşına çatması və beş uşağı olması ilə əlaqədar pensiya təyin edilməsi üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Şahbuz Rayon Şöbəsinə

müraciət etsə də, müraciətinin nəticəsiz qaldığını bildirmiş, ona güzəştli şərtlərlə pensiya və ya müavinət təyin edilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət baxılmaq üçün icraata götürülərək qanunvericliyin tələblərinə uyğun araşdırılmış, vətəndaşın güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququnun yarandığı müəyyən edilmiş, şikayətlə bağlı aidiyyəti quruma ünvanlanmış müraciətdən sonra ərizəçiyə pensiya təyin olunaraq tələb təmin olunmuş və hüquq pozuntusu aradan qaldırılmışdır. Həmçinin ötən dövr üçün hesablanmış və ödənilməmiş pul vəsaiti əvvəlki ayların sayına bölünərək aylıq pensiyanın üzərinə əlavə edilmişdir.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində nəzərdə tutulmuşdur ki, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş səkkiz yaşınadək övladlığa və ya qəyyumluğa götürülmüş uşaqlar da daxil olmaqla beş və daha çox uşağı olan və ya əlilliyi müəyyən edilmiş uşağı olan qadınların və kişilərin, uşaqların səkkiz yaşınadək sağ olması şərtilə, bu Qanunun 7-ci maddəsi ilə müəyyən edilmiş şərtlər daxilində yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır.

**Ərizəçi P.** Ombudsmana müraciət edərək ərinin məhkum olduğunu, 2 azyaşlı uşağının olduğunu, qayınatası ilə birgə yaşadığını, qayınatasının aldığı əmək pensiyasından başqa heç bir gəlir mənbələrinin olmadığını, ünvanlı dövlət sosial yardımının təyin olunması üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Babək Rayon Şöbəsinə müraciət etdiyini, lakin ərinin məhkumluğu ilə bağlı zəruri məlumatların elektron informasiya sistemində mövcud olmadığı əsas gətirilərək sosial yardımın verilməsindən imtina edildiyini, zəruri sənədlərin alınması ilə əlaqədar aidiyyəti orqana müraciət etmək istəsə də, Şöbə tərəfindən həmin yazılı sənədlərin qəbul edilməyəcəyinin bildirildiyini qeyd etmiş və ailəsinin maddi vəziyyəti nəzərə alınaraq ünvanlı dövlət sosial yardımının təyin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət qanunamüvafiq qaydada baxılaraq təmin olunmuş və ərizəçinin ailəsinə VEMTAS üzərindən avtomatlaşdırılmış qaydada aylıq 440.64 manat məbləğində sosial yardım təyin olunmuşdur.

**Ərizəçi R.** Ombudsmana müraciət edərək Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tibb bacısı vəzifəsində işlədiyini, müəssisənin ləğvi ilə əlaqədar olaraq işdən azad olunduğunu, ərinin vəfat etdiyini və iki əlil övladı təkbaşına saxladığını, əlilliyə və ailə başçısını itirməyə görə aldığı pensiyanın ailəsinin yeganə gəlir mənbəyi olduğunu bildirmiş, ailəsinin maddi vəziyyəti və ixtisası nəzərə alınaraq münasib işlə təmin olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən ərizəçinin müraciəti ilə əlaqədar aidiyyəti dövlət orqanlarına sorğular göndərilmiş, Naxçıvan Muxtar Republikası Səhiyyə Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq nəticəsində ərizəçi "Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası" publik hüquqi şəxsində tibb bacısı vəzifəsinə təyin olunmuşdur.

**Ərizəçi S.** Ombudsmana müraciət edərək üç övladının saxlanması üçün alimentin ödənilməsi barədə çıxarılmış məhkəmə qətnaməsinin icra olunmadığını bildirmiş və müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətçinin tələbi ilə bağlı aidiyyəti

quruma müraciət edilmiş, davam edən icra tədbirləri nəticəsində aliment öhdəliyi üzrə aylıq ödənişin və aliment borcunun ödənilməsi təmin edilmişdir.

***Ahılların hüquqlarının müdafiəsi.*** Sosial cəhətdən həssas qrupa aid olan ahıl şəxslərin hüquqlarının səmərəli təmin edilməsi və onlara sosial dəstək imkanlarının artırılması Ombudsman tərəfindən daim diqqət mərkəzindədir.

**Ərizəçi Ş.** Ombudsmana müraciət edərək əlilliyi olan şəxs kimi oturma vəziyyətində balansın və tarazlığın saxlanılması üçün ona verilən reabilitasiya vasitəsinin yararsız vəziyyətə düşdüyünü, dəyişdirilməsi üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə etdiyi müraciətinin nəticəsiz qaldığını, həmçinin yaşadığı binada lift sistemində yaranan nasazlıq səbəbindən rahat və təhlükəsiz hərəkət edə bilmədiyini qeyd etmiş, reabilitasiya vasitəsinin dəyişdirilməsinə və liftin təmir olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciətində qeyd etdiyi liftin təmir olunma tələbi ilə bağlı Naxçıvan Şəhər İcra Hakimiyyətinə müraciət olunduqdan sonra lift sistemində yaranan nasazlıq aradan qaldırılmışdır.

Ərizəçinin müraciətində qeyd etdiyi reabilitasiya vasitəsinin dəyişdirilməsi tələbi ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmiş sorğuya cavab olaraq ərizəçiyə 1 ədəd reabilitasiya vasitəsi verildiyi, həmin reabilitasiya vasitəsi ilə yenidən təmin edilməsi üçün qeydiyyata alındığı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli, 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi şərtləri və Qaydası"na uyğun olaraq növbəlilik əsasında təmin olunacağı bildirilmişdir.

Qeyd etmək lazımdır ki, əlilliyi olan şəxs növbəlilik prinsipi əsasında minik avtomobili və təkərli oturacaqla (mühərrikli) təmin edilir. Digər reabilitasiya vasitələrilə isə əlavədə qeyd olunmuş hazırlanma, dəyişdirilmə və ya təmir müddətləri çərçivəsində təmin edilir. Bunu nəzərə alaraq aidiyyəti quruma müraciət olunduqdan sonra ərizəçi yeni reabilitasiya vasitəsi ilə təmin edilmişdir.

Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli, 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi şərtləri və Qaydası"nın 2.4-cü bəndinə əsasən əlilliyi olan şəxs reabilitasiya vasitələri ilə bu Qaydanın əlavəsi ilə müəyyən olunmuş sayda, həmçinin tibbi göstərişlər, əks göstərişlər nəzərə alınmaqla hazırlanma, dəyişdirilmə və ya təmir müddətləri çərçivəsində təmin edilir.

Həmin Qaydanın 2.7-2-ci bəndinə əsasən bu Qaydanın 3-cü hissəsinin (əlilliyi olan şəxslərin minik avtomobili və təkərli oturacaqla təmin edilməsi) müddəaları nəzərə alınmaqla, reabilitasiya vasitələri istifadə müddəti başa çatmazdan əvvəl yararsız vəziyyətə düşdükdə həmin reabilitasiya vasitələri tibbi-texniki komissiyanın qərarı əsasında dövlət vəsaiti hesabına təmir edilir və ya bu qaydanın əlavəsi ilə müəyyən edilmiş təmir müddətlərində təmir etmək mümkün olmadıqda isə yenisi ilə əvəz edilir.

Həmin Qaydanın "Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsinə dair tibbi göstərişlər, əks-göstərişlər, reabilitasiya vasitələrinin istifadə, təminat, hazırlanma, təmir və ya dəyişdirilmə müddətləri" adlı əlavəsinin 2.2-ci bəndində bəhs olunan

reabilitasiya vasitəsinin təmir müddəti göstərilməsə də, dəyişdirilmə müddəti 7 iş günü müəyyən olunmuşdur.

Ahıllara göstərilən sosial müdafiə və səhiyyə xidmətlərinin keyfiyyət səviyyəsinin artırılması üzrə tədbirlərin gücləndirilməsi, onların sosial-məişət xidmətlərinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilməsi məqsədəmüvafiqdir.

Ahıl vətəndaşların maddi və mənəvi tələbatlarının ödənilməsi, müxtəlif növ xidmətlərin göstərilməsi, sağlamlıqlarının qorunması və tibbi reabilitasiyasının beynəlxalq standartlar səviyyəsində qurulması Ombudsman tərəfindən davamlı araşdırılmış, onlara göstərilən tibbi-sosial xidmətlərin, asudə vaxtlarının təşkili və digər hüquqların təmin olunması vəziyyəti nəzarətdə saxlanılmış, "Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reablitasiya Müəssisəsi"nə başçəkmələr həyata keçirilmiş, orada olan şəxslərlə fərdi və konfidensial söhbət aparılmış, müəssisə rəhbərinə və əməkdaşlarına hüquqi məsləhətlər və tövsiyələr verilmişdir.

***Hərbi qulluqçuların hüquqlarının müdafiəsi.*** Silahlı Qüvvələrin şəxsi heyətinə, habelə ehtiyatda və istefada olan hərbi qulluqçulara dövlət qayğısının artırılması, mənzil-məişət şəraitinin daha yaxşılaşdırılması üzrə həyata keçirilən tədbirlər hərbi qulluqçuların hüquqlarının səmərəli təmin edilməsində və onların sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynayır.

Hərbi qulluqçular və onların ailə üzvlərindən Ombudsmana daxil olmuş müraciətlərdə əsasən məhrum olduqları hərbi rütbənin bərpa edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarının aparıldığı dövrdə hərbi xidmətdə olduğuna dair arayış və digər zəruri sənədlərin verilməsi, sığorta ödənişinin ödənilməsi, habelə hərbi qulluqçuların, ehtiyatda və istefada olan hərbi qulluqçuların və onların ailə üzvlərinin bəzi sosial problemləri, o cümlədən mənzil təminatı ilə bağlı məsələlər öz əksini tapmışdır.

Ombudsman tərəfindən hərbi qulluqçular və onların ailə üzvlərindən daxil olmuş müraciətlər üzrə araşdırmalar aparılmış, aidiyyəti dövlət qurumlarına sorğular verilmiş, onların hüquqlarının təmini və müdafiəsi istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Həmçinin hərbi qulluqçuların hüquqi maarifləndirilməsi istiqamətində aparılan işlər 2024-cü ildə də Ombudsmanın fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Ombudsmanın, Əlahiddə Ümumqoşun Ordunun və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının birgə təsdiq etdiyi tədbirlər planına əsasən, Ombudsman və aparatın əməkdaşları muxtar respublikadakı hərbi hissələrdə olmuş, şəxsi heyətlə hüquqi maarifləndirmə işinin gücləndirilməsi və insan hüquqlarının müdafiəsi vəziyyətini yerində öyrənmək məqsədilə müvafiq tədbirlər həyata keçirmişlər.

***Miqrantların hüquqlarının müdafiəsi.*** Miqrantların hüquqlarının təmin olunması məsələləri Ombudsmanın diqqət mərkəzində olmuş, bu istiqamətdə hüquq pozuntularının qarşısının alınması məqsədilə mütəmadi olaraq başçəkmələr həyata keçirilmiş, saxlanılan şəxslərin beynəlxalq və milli qanunvericiliyə uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyəti araşdırılmışdır.

Miqrasiya proseslərinin iştirakçısı olan şəxslərin dövlətdaxili və beynəlxalq hüquq normaları ilə müəyyən edilmiş hüquq və mənafelərinin səmərəli qorunması, onların bu

barədə məlumatlandırılması, qanuni miqrasiyanın təşviqi sahəsində aidiyyəti dövlət orqanı ilə əməkdaşlıqda Ombudsman tərəfindən tədbirlər həyata keçirilmişdir.

Bu tədbirlərdə miqrantların hüquqi statusunun tənzimlənməsi, onların miqrasiya, iqtisadi, sosial və digər sahələrdə dövlət xidmətlərindən operativ yararlanması və əlçatanlığın təmin edilməsi kimi məsələlər xüsusilə vurğulanmış, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınma proseduru, habelə miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə qanunla nəzərdə tutulmuş inzibati məsuliyyət barədə məlumatlar diqqətə çatdırılmışdır.

Ombudsmanın Preventiv qrupunun üzvləri tərəfindən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Naxçıvan Regional Miqrasiya Baş İdarəsinin tabeliyində olan və Naxçıvan şəhərində yerləşən Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinə həyata keçirilmiş başçəkmələr zamanı orada könüllü yerləşdirilən miqrantlarla fərdi və konfidensial şəraitdə söhbət aparılmış və saxlama şəraiti, işçi heyətin onlarla rəftarı, qidanın keyfiyyəti, görüş hüququnun, digər hüquq və azadlıqlarının təmini vəziyyətinin monitorinqi aparılmış, başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyəti yerində yoxlanılmışdır.

## II FƏSİL
## Beynəlxalq təcrübə mübadiləsi və əməkdaşlıq:

Hesabat dövründə Ombudsman insan hüquq və azadlıqlarının müdafiəsi, hüquqi, elmi-analitik, informasiya və metodiki məsələlər üzrə öz fəaliyyətini Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə əlaqələndirmişdir.

Ombudsman Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı Rezident Nümayəndəsi və ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Seçki Müşahidə Missiyasının üzvləri ilə görüşmüş, görüşlər zamanı Ombudsman təsisatın fəaliyyət istiqamətləri, muxtar respublikada insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi və etibarlı müdafiəsinin davamlı inkişafı üçün yaradılan geniş imkanlar, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirlər haqqında ətraflı məlumat vermişdir.

Ombudsman, Hüquq və İnsan Haqları İnstitutu və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində "İqlim dəyişikliyi və insan hüquqları" mövzusunda aidiyyəti qurumların iştirakı ilə geniş tərkibdə konfrans keçirilmişdir.

Həmçinin Ombudsman və "UNİCEF"-in Azərbaycan Nümayəndəliyinin birgə təşkilatçılığı ilə "BMT-nin Uşaq Hüquqları Komitəsinin "Uşaq hüquqları haqqında" Konvensiyanın icrası ilə bağlı Azərbaycan Respublikasının beşinci və altıncı məruzələrinə dair Yekun Tövsiyələri" mövzusunda vebinar təşkil edilmişdir.

Ombudsman və təsisatın əməkdaşları Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının birgə təşkilatçılığı ilə "İqlim dəyişikliyi və İnsan Hüquqları: Ombudsman və Milli İnsan Hüquqları İnstitutlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Bakı Forumunda iştirak etmiş və Ombudsman "İqlim dəyişikliyi, onun minalar və müharibənin partlayıcı qalıqları ilə kəsişməsi" mövzusunda çıxış etmişdir.

Qeyd olunanlarla yanaşı təsisatın əməkdaşları Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) və Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycan Respublikasındakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Cenevrə Konvensiyalarının 75-ci ildönümünə həsr olunmuş "Beynəlxalq humanitar hüququn tətbiqi üzrə fəaliyyətlər: Müsbət təcrübələr və problemlər" və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının təşkilatçılığı ilə keçirilmiş "Məcburi yerdəyişməyə məruz qalmış və vətəndaşlığı olmayan şəxslərin himayəsi" mövzusunda seminarlarda iştirak etmişlər.

# III FƏSİL
# HÜQUQİ MAARİFLƏNDİRMƏ, MEDİA VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ

**İnsan hüquqları sahəsində maarifləndirmə.** Cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, bərabərlik hüququnun təmininin və ayrı-seçkiliyin qarşısının alınmasının təbliği məqsədilə hüquqi maarifləndirmə işinin həyata keçirilməsi xüsusi əhəmiyyətə malikdir.

2024-cü il ərzində Ombudsman tərəfindən əhalinin müxtəlif kateqoriyalarının hüquqi maarifləndirilməsinə xüsusi diqqət göstərilmişdir. Ombudsmanın təşkilatçılığı ilə əhalinin müxtəlif qrupları ilə yanaşı, dövlət orqanlarının, bələdiyyələrin, vətəndaş cəmiyyəti institutlarının, o cümlədən media nümayəndələrinin iştirakı ilə insan hüquqlarının müxtəlif istiqamətlərinə dair hüquqi maarifləndirmə tədbirləri həyata keçirilmiş, eyni zamanda təsisat əməkdaşlarının əhalinin insan hüquqlarına dair məlumatlılıq səviyyəsinin artırılması məqsədilə müvafiq qurumlar tərəfindən keçirilən analoji tədbirlərdə məruzəçi qismində iştirakı təmin olunmuşdur.

Ombudsman tərəfindən ənənəvi olaraq 2024-cü ildə də 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü və BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının qəbul edilməsinin ildönümü ilə bağlı Naxçıvan şəhərində və rayonlarda insan hüquqlarına dair müxtəlif aktual mövzulara həsr edilmiş hüquqi maarifləndirmə tədbirləri keçirilmişdir. Aidiyyəti dövlət qurumları, idarə, müəssisə və təşkilatlar, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları və media nümayəndələri də həmin tədbirlərdə fəal iştirak etmişlər. Təşkil olunmuş həmin tədbirlər əhalinin sosial cəhətdən həssas qruplarının hüquqlarının müdafiəsi və onların hüquqi cəhətdən maariflənmələri baxımından faydalı olmuşdur.

2024-cü ildə hərbi qulluqçuların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə diqqət mərkəzində olmuş, Əlahiddə Ümumqoşun Ordu və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası ilə birgə hazırlanmış Tədbirlər Planına uyğun olaraq muxtar respublika ərazisindəki hərbi hissə və birləşmələrdə müxtəlif tədbirlər keçirilmişdir.

Hesabat dövründə Ombudsman "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının tabeliyində olan N saylı sərhəd zastavasında olmuş, zastavanın yataqxanasına, məişət və sinif otaqlarına, yeməkxanasına baxış keçirmiş, qidalanma səviyyəsi, asudə vaxtın təşkili və tibbi-sosial xidmətin təmin olunması vəziyyətini öyrənmiş, sərhədçilərin hüquqlarının daha etibarlı və səmərəli müdafiəsi ilə bağlı hüquqi maarifləndirici söhbət aparmışdır.

Həmçinin 2024-cü ildə Preventiv qrup üzvləri Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki postlarında olmuş, ərzaq anbarlarına və hərbi sirr təşkil etməyən digər obyektlərə baxış keçirmiş, şəxsi heyətlə fərdi və ümumi söhbətlər aparmış, hüquqi maariflədirmə tədbirləri keçirmişdir.

Əlahiddə Ümumqoşun Ordunun muxtar respublikadakı hərbi hissə və birləşmələrində 7, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının zastavalarında 10, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında isə 1 tədbir keçirilmişdir.

2024-cü ildə Ombudsmanın və Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə cəzaçəkmə müəssisələrində insan hüquqlarının müxtəlif istiqamətləri üzrə 2 tədbir keçirilmiş, məhkumlar və müəssisə əməkdaşları arasında məhkumların hüquqlarının daha səmərəli müdafiəsinin təmin olunması, qanunlara hörmət ruhunun aşılanması üzrə maarifləndirici söhbətlər aparılmış, hüquq və vəzifələr izah olunmuşdur.

Beynəlxalq Qadınlar Günü münasibətilə Ombudsman Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin Qadınlar bölməsində cəza çəkən məhkum qadınlarla görüşmüş, cəmiyyətin həssas qrupu olan qadın məhkumların hüquqlarının təmin olunması, onların islah edilməsi və hüquqi maarifləndirilməsi sahəsində görülən işlər barədə məlumat vermiş, maarifləndirici söhbət aparmışdır.

Hesabat dövründə Ombudsmanın və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərlə görüş keçirilmiş, onların sosial mühitə uyğunlaşdırılması, özünüməşğulluğun təmin edilməsi, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması ilə bağlı Ombudsmana müraciət etmək hüquqları izah olunmuşdur.

Muxtar respublikada əhalinin sağlamlığının qorunması və sağlamlıq hüququnun müdafiəsi ilə bağlı Ombudsman və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə səhiyyə müəssisələrində "Sağlamlıq hüququnun qorunması və təmin edilməsi", "Sağlam ətraf mühitdə yaşamaq hüququ", "Psixiatriya müəsissəsinin işçi heyətinin pasiyentlərlə rəftarına dair beynəlxalq və milli qanunvericiliyin tələbləri" mövzularında maarifləndirici tədbirlər keçirilmişdir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, Ombudsman Ermənistanla təmas xətti olmuş və minalardan təmizlənməmiş "Qanlıgöl" yaylağı adlanan ərazidə baş vermiş mina partlayışı nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almış Şərur rayon sakininə müayinə və müalicə olunduğu müəssisədə baş çəkmiş, sağlamlıq hüququnun təmini vəziyyəti ilə bağlı məlumat almış, müəssisə rəhbərliyinə sağlamlıq hüquqlarının təmini ilə bağlı müvafiq tövsiyələr vermişdir.

Vurğulamaq lazımdır ki, Ermənistan tərəfindən ərazilərimizdə basdırılmış minaların dəqiq xəritələrinin ölkəmizə hələ də təqdim edilməməsi sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunmasına ciddi maneələr törədir.

Ombudsman və "Hüquq və İnsan Haqları İnstitutu" publik hüquqi şəxsinin birgə təşkilatçılığı ilə "Əlil və uşaq hüquqları beynəlxalq konvensiyalarda" mövzusunda vebinar və "Uşaq hüquqlarına dair məlumat sessiyası" mövzusunda təlim keçirilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), Mərkəzi Seçki Komissiyasının birgə təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) iştirakı ilə "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda 2 dəyirmi masa təşkil edilmiş, seçki qanunvericiliyi, seçki prosedurları barəsində geniş məlumat verilmişdir.

Bununla yanaşı Ombudsman və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq olunmuş tədbirlər planına uyğun olaraq "Vətəndaşların seçki hüququnun konstitusion əsasları" mövzusunda tədbir keçirilmiş, ilk dəfə səsvermə hüququ əldə etmiş gənclərə "Mənim seçki hüququm" adlı vəsaitlər paylanmışdır.

2024-cü il fevralın 7-nə təyin olunmuş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri öncəsi Ombudsman tərəfindən Əlahiddə Ümumqoşun Ordunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan müəssisələrdə seçki hüququ ilə bağlı maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Həmçinin 2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər öncəsi Ombudsman və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının birgə təşkilatçılığı ilə muxtar respublikanın şəhər və rayonlarında "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda geniş maarifləndirmə tədbirləri təşkil edilmişdir.

2024-cü il ərzində Ombudsman tərəfindən milli və beynəlxalq əhəmiyyətli günlərin qeyd olunması ilə əlaqədar 13 tədbir, vətəndaşların seçki hüququnun təmini ilə əlaqədar 16 tədbir, "Yaşıl dünya naminə həmrəylik ili" və COP29-çərçivəsində 1 beynəlxalq, 2 respublika miqyaslı olmaqla 3 tədbir, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı 15 tədbir  keçirilmişdir.

Ombudsmanın təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə "İnsan hüquqları" ilə bağlı məqalə müsabiqəsi elan olunmuş, müsabiqənin qaliblərinə fəxri fərman və pul mükafatı təqdim edilmişdir.

Ombudsman vətəndaş cəmiyyəti institutları ilə birgə "Parlaq gələcək naminə" layihəsi çərçivəsində muxtar respublikanın şəhər və rayonlarının ümumtəhsil müəssisələrində, o cümlədən Ordubad şəhər tam orta internat məktəbində silsilə maarifləndirici tədbirlər keçirmişdir.

Ombudsman təsisatı tərəfindən autizmli gənc rəssamın "Mənim rəngli dünyam" adlı albom - kataloqu hazırlanaraq aidiyyəti qurumlara və kitabxanalara paylanılmışdır.

Qeyd etmək lazımdır ki, 2024-cü il ərzində Ombudsman tərəfindən beynəlxalq səviyyəli 2 tədbir təşkil edilmiş və aparatın əməkdaşları beynəlxalq səviyyəli 5 tədbirdə iştirak etmişdir. Həmçinin müxtəlif sosial qruplara ünvanlanmış və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə respublika səviyyəli plan üzrə 51, plandankənar 51 olmaqla, 109 tədbir (konfrans, təlim, seminar və s.) keçirilmişdir. Ümümilikdə 78 müəssisəni əhatə edən tədbirlərdə 4733 nəfər iştirak etmişdir.

***İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyətləri ilə əməkdaşlıq.*** Hesabat dövründə Müxtəlif dövlət qurumları və onların yerli struktur bölmələri, ali, orta ixtisas və ümumi təhsil müəssisələri ilə yanaşı, vətəndaş cəmiyyəti institutları, o cümlədən ictimai birliklər, media qurumları və digər qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq davam etdirilmiş, insan hüquqlarının prioritet istiqamətlərinə həsr olunmuş çoxsaylı tədbirlər təşkil edilmişdir.

2024-cü ildə Ombudsman II Qarabağ müharibəsinin gənc veteranları, o cümlədən "Naxçıvan qaziləri" İctimai Birliyinin sədri və üzvləri ilə görüşümüş, onları maraqlandıran sualları cavablandırmış, Ombudsmanın səlahiyyətləri və muxtar respublikada bu istiqamətdə görülən işlər barədə məlumat vermişdir.

Həmçinin Ombudsmanın vətəndaş cəmiyyəti institutlarının rəhbər şəxsləri və uşaqlarla görüşü olmuşdur.

Ombudsman tərəfindən qeyri-hökumət təşkilatlarının hüquqi maarifləndirilməsi istiqamətində mühüm tədbirlər təşkil edilmiş, o cümlədən keçirilmiş tədbirlərdə onların nümayəndələrinin iştirakı təmin olunmuşdur.

2024-cü ildə Ombudsman gənclərin hüquqi maarifləndirilməsi, hüquqi düşüncə və hüquq mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi məqsədi ilə bir qrup gənc - müharibə veteranı, şəhid övladı, dövlət qulluqçusu, istedadlı tələbə, idmançı, jurnalist və sağlamlıq imkanları məhdud gənclərlə, eləcə də Femida Könüllüləri Təşkilatının könüllü tələbələri ilə görüşmüşdür.

Həmçinin Ombudsman "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununu nəzərə almaqla, dövlət orqanlarında gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, eyni zamanda, ölkədə könüllülük hərəkatına dəstək olmaq məqsədi ilə ali təhsil alan gəncləri Ombudsman aparatında könüllü fəaliyyətə cəlb etmək məqsədilə "Könüllülük proqramı"nın icrasına başlamışdır.

***Media ilə əməkdaşlıq.*** Ombudsman geniş ictimaiyyətlə əlaqələrin daha sıx və səmərəli təşkili məqsədilə media subyektləri ilə əməkdaşlığını daha da genişləndirmiş, sosial şəbəkə hesabları vasitəsilə təsisatın fəaliyyəti barədə məlumatlara əlçatanlığı təmin etmişdir.

Ombudsmanın fəaliyyəti barədə məlumatlar yerli və ölkə mediası tərəfindən geniş şəkildə işıqlandırılmışdır. Bu məlumatların operativ şəkildə ictimaiyyətə çatdırılmasını təmin etmək üçün Ombudsmanın rəsmi internet səhifəsi və feysbuk, instaqram, X hesabları, yutub, vatsap və teleqram kanallarındakı məlumatlar daim yenilənmiş və mətbuata göndərilmiş, televiziya kanallarına il ərzində ümumilikdə 17 müsahibə verilmişdir.

Ombudsmanın fəaliyyəti ilə bağlı yerli və ölkə mediasında 316, rəsmi internet səhifəsi və sosial media hesablarında 942 informasiya materialı olmaqla, ümumilikdə 1258 informasiya materialı işıqlandırılmışdır.

## TƏKLİFLƏR

Ombudsman insan hüquq və azadlıqlarının səmərəli təmin olunması və etibarlı müdafiəsi məqsədilə aşağıdakıları *təklif edir:*

- Əlilliyin müəyyən olunması ilə bağlı həkim-məsləhət komissiyalarının göndərişləri ilə tibbi-sosial ekspert komissiyalarının rəyləri arasında ziddiyyətlərin aradan qaldırılması məqsədilə "Tibbi-Sosial Ekspert Komissiyasına göndərişlərin reyestri"nə daxil edilməli olan məlumatlara dair tələblərin dəqiq müəyyən edilməsini;

- Əlillik vəziyyətinin qiymətləndirilməsi ilə bağlı rəsmiləşdirilmiş göndərişlərə dair qərarların qəbul edilməsi zamanı, o cümlədən əlillik vəziyyətinin müəyyən edilməsi zamanı tibbi-sosial ekspert komissiyaları ilə həkim-məsləhət komissiyaları arasında funksional əlaqələndirmənin təmin edilməsini;

- Əlillərin həyat şəraitinin yaxşılaşdırılması üçün fiziki məkanların (binaların, nəqliyyat vasitələrinin) əlillərə uyğunlaşdırılması və iş yerlərində uyğun şəraitin yaradılmasını;

- Uşaqların sağlam fiziki və psixi inkişafına, onların sağlamlıq vəziyyətinə tibbi-profilaktik nəzarətin gücləndirilməsi, eyni zamanda 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin müntəzəm olaraq müvafiq tibbi-reabilitasiya xidmətlərindən istifadəsinin daha əlçatan olmasını;

- Məktəbəqədər təhsil müəssisələrində uşaqların sağlamlığın qorunması hüququnun təmin edilməsi sahəsində səmərəliliyin artırılması məqsədilə qidanın keyfiyyətinə nəzarətin artırılmasını, qida normalarının müasir standartlara uyğunlaşdırılmasını;

- Erkən uşaqlıq dövründə uşaqların inkişafının təmin olunması, uşaqların gələcəkdə sağlamlıq və sosial risklərə məruz qalma ehtimalının qarşısının alınması məqsədilə məktəbəqədər təhsil müəssisələrində "uşaq psixoloqu" ştatlarının yaradılmasını;

- Ümumtəhsil müəssisələrində mövcud psixoloq ştatlarının şagird sayına uyğun artırılmasını, habelə peşəkar və ixtisaslaşmış psixoloqların cəlb edilməsini;

- İnternat məktəbində gecələyən təhsilalanların sağlam, təhlükəsiz və inkişaf etdirici mühitdə yaşamaq hüququnun təmin edilməsi məqsədilə "gecə dayəsi" və "psixoloq" ştatlarının sayının artırılmasını;

- Şəhər və rayonlarda qəzalı və köhnə vəziyyətdə olan məktəb binalarının, uşaq bağçaları və körpələr evlərinin yenidən qurulmasını və ya əsaslı təmir edilməsini və onların müasir avadanlıqlarla təchiz edilməsini;

- Məktəblərdə və digər təlim-tədris müəssisələrində insan hüquqları mövzusunun tədris edilməsini və bu sahədə maarifləndirmə proqramlarının keçirilməsini;

- Çətin həyat şəraitində olan, o cümlədən məişət zorakılığından zərərçəkmiş şəxslərin, xüsusən qadın və uşaqların təhlükəsizliyinin və müdafiəsinin xüsusi təlim keçmiş

mütəxəssislərin köməyi ilə təmin edilməsi məqsədilə yardım mərkəzlərinin, sığınacaq evlərinin, psixoloji dəstək mərkəzlərinin yaradılmasını;

- Zorakılıq halları ilə mübarizə üçün təhsil və məlumatlandırma kampaniyalarının təşkil edilməsini, cəmiyyətdə zorakılığa qarşı tolerantlıq prinsipinin gücləndirilməsini;

- Məhkumların maddi ehtiyaclarının, habelə aliment və başqa borclarının ödənilməsi və ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində yeni istehsal sahələrinin yaradılmasını;

- Penitensiar müəssisələrdə məhkumlara psixoloji yardımın göstərilməsi məqsədilə məhkumlarla işləmək bacarığına malik peşəkar və ixtisaslaşmış psixoloqların cəlb edilməsini;

- Məhkum edilmiş şəxslərin təhsil almaq hüququnun təmin edilməsi, orta ixtisas və ya ali təhsilini davam etdirməsi, öz bilik və bacarıqlarını artırması məqsədilə müvafiq mexanizmlərin yaradılmasını;

- Video zənglərin təşkil edilməsinin məhkumun ailəsi və yaxınları ilə əlaqələrini möhkəmləndirməklə islah prosesinə müsbət təsirini, görüş üçün sərf ediləcək nəqliyyat xərclərinə (xüsusilə uzaqda yaşayanlar üçün) qənaəti nəzərə alaraq məhkumların videogörüş keçirmək hüququnun təmin olunması üçün zəruri addımların atılmasını;

- Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınması məqsədilə sosial adaptasiya mərkəzinin yaradılmasını;

- Daxili İşlər Nazirliyinin müvəqqəti saxlama yerlərində və kameralarında saxlanma şəraitinin qanunvericiliyin tələblərinə uyğunlaşdırılmasını, əsaslı təmir-bərpa işlərinin aparılmasını;

- Muxtar respublikanın bir sıra bölgələrində suvarma suyu ilə bağlı problemlərin həlli məqsədilə yeni artezian quyularının qazılmasını.

Qeyd edilənlərlə yanaşı, Ombudsmanın fəaliyyətinin daha səmərəli təşkili məqsədilə strukturun təkmilləşdirilməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə aşağıda göstərilmiş məsələlərin həllinin zəruriliyi *diqqətə çatdırılır:*

- Başçəkmələrin və monitorinqlərin yüksək səviyyədə təşkili və operativ şəkildə həyata keçirilməsi məqsədilə Ombudsman aparatında "Başçəkmələr və monitorinqlər sektoru"nun və onun tərkibində müvafiq ştatların (Sektor müdiri; Böyük məsləhətçi-həkim; Böyük məsləhətçi-psixoloq) və maddi-texniki bazanın yaradılmasını;

- Ombudsman aparatının inzibati binasına buraxılışın və idarədaxili rejimin, təhlükəsizliyin və mülkiyyətin mühafizəsinin təmin edilməsi məqsədilə təsisatda mühafizə xidmətinin fəaliyyət göstərməsini;

- İnsan hüquqlarının müdafiəsinin daha səmərəli və operativ təmin edilməsi məqsədilə Ombudsman təsisatında "Çağrı mərkəzi" xidmətinin yaradılmasına maliyyə dəstəyinin verilməsini.

| Mündəricat | |
|---|---|
| **GİRİŞ SÖZÜ** | 3 |
| **I FƏSİL. İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ** | 7 |
| **1.1. Mülki və siyasi hüquqların müdafiəsi** | 7 |
| • Azadlıq hüququ | 7 |
| • “İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza əleyhinə” Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş preventiv mexanizm funksiyalarının həyata keçirilməsi | 10 |
| • Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı | 14 |
| • İnformasiya əldə etmək hüququ | 21 |
| • Müraciət etmək hüququ | 23 |
| • Seçki hüququnun təmini | 24 |
| **1.2. İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi** | 25 |
| • Əmək hüququ | 25 |
| • Sosial təminat hüququ | 27 |
| • Sağlamlığın qorunması hüququ | 32 |
| • Sağlam ətraf mühitdə yaşamaq hüququ | 34 |
| • Təhsil hüququ | 35 |
| • Mülkiyyət hüququ | 37 |
| **1.3. Əhali qruplarının hüquqlarının müdafiəsi** | 38 |
| • "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın muxtar respublikada həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi | 39 |
| • Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi | 39 |
| • Uşaq hüquqlarının müdafiəsi | 41 |
| • Şəhid ailələrinin və müharibə veteranlarının hüquqlarının müdafiəsi | 43 |
| • Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi | 44 |
| • Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi | 46 |
| • Ahılların hüquqlarının müdafiəsi | 49 |
| • Hərbi qulluqçuların hüquqlarının müdafiəsi | 50 |
| • Miqrantların hüquqlarının müdafiəsi | 50 |
| **II FƏSİL. BEYNƏLXALQ TƏCRÜBƏ MÜBADİLƏSİ VƏ ƏMƏKDAŞLIQ** | 52 |
| **III FƏSİL. HÜQUQİ MAARİFLƏNDİRMƏ, MEDİA VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ** | 53 |
| • İnsan hüquqları sahəsində maarifləndirmə | 53 |
| • İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyətləri ilə əməkdaşlıq | 55 |
| • Media ilə əməkdaşlıq | 56 |
| **Təkliflər** | 57 |
| **Mündəricat** | |
| **Diaqramlar** | |

## DİAQRAMLAR

### 1. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə 2024-cü ildə ünvanlanan müraciətlərin daxilolma forması




### Müraciətlərin növü




### Müraciətlərin aylar üzrə bölgüsü



**Müraciətlərin faiz və rəqəmlə göstəricisi**




## 2. 2024-cü il ərzində Ombudsman və onun Preventiv qrupu tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə həyata keçirilmiş başçəkmələr




**Başçəkmələrin aylar üzrə bölgüsü**



**Başçəkmələrin dövlət orqanları üzrə bölgüsü**




## 3. 2024-cü il ərzində Ombudsman və onun Monitorinq qrupları tərəfindən sosial xidmət, təhsil və tibb müəsissələrində həyata keçirilmiş monitorinqlər



## Monitorinqlərin aylar üzrə bölgüsü




## Monitorinqlərin dövlət orqanları üzrə bölgüsü

